**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

# 2022 - 2030 - cu illər üçün Lənkəran Dövlət Universitetinin

# Strateji İnkişaf Planı

*Strateji İnkişaf Planı Elmi Şuranın 27.04.2022 - ci il tarixli 04 saylı protokolu ilə təsdiq edilmişdir*

**Lənkəran -2022**

## Mündəricat

**Giriş**.......................................................................................................................**3**

**1. Yeni çağırışlar və universitetin mövcud vəziyyət**

*1.1.Universitetin missiyası, strateji məqsədlər, məqsədə çatma vasitələri, strateji fəaliyyət və dəyərlər sistemi*.........................................................................................5

*1.2. Strateji inkişafın qarşısında duran vəzifələr*...................................................6

*1.3. Universitetin GİZT təhlili:üstünlüklər və çatışmazlıqlar, imkan və məhdudiyyətlər*.......7

**2. Təhsil fəaliyyəti**

***2**.1. Strateji inkişaf planı çərçivəsində yeni məzun modeli: strateji məqsəd və vəzifələr*.....11

*2.2. Fasiləsiz təhsil sisteminin inkişaf etdirilməsi*................................................13

*2.3. Yeni təhsil şəbəkəsi formasının inkişafı*.........................................................14

**3. Elmi - tədqiqat və innovasiya fəaliyyəti**

*3.1. Tədqiqat universiteti modelinin formalaşmasının məqsəd, vəzifə və prinsipləri*.......17

*3.2. Elmi - tədqiqat və innovasiya fəaliyyətinin prioritet istiqamətləri*..............................19

*3.3. Elm - tədqiqat və innovasiya fəaliyyətinin reallaşmasından gözlənilən nəticələr*........19

**4. Beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi**

*4.1. Beynəlxalq əməkdaşlıq sahəsində sistemli fəaliyyətin strateji məqsəd, vəzifə və əsas istiqamətləri*.........................................................................................23

*4.2. Beynəlxaq təhsil üzrə əməkdaşlıq*...................................................................24

*4.3. Beynəlxalq əlaqələrin infrastrukturunun təkmilləşdirilməsi*...................................25

**5. Kommunikasiya və reputasiyanın idarə edilməsi**

*5.1. Kommunikasiya universitet imicinin yaradılması vasitəsi kimi*..................................27

*5.2.Marketinqin kommunikasiya sistemi*.................................................................27

*5.3. Reklam,ictimayyətlə əlaqə və sərgilər*...............................................................28

**6. Sosial və tərbiyə işləri**

*6.1. Təhsil alanlarda kreativ və sosial kapitalın inkişafı*..................................................29

*6.2. Sosial və tərbiyə işləri üzrə sistemin təkmilləşdirilməsi*.........................................30

**7. İdarəetmə sistemi və effektiv menecment**

*7.1. İdarəetmə strukturu*.......................................................................................32

*7.2. Universitetin vahid informasiya mühiti*...............................................................34

*7.3. Kadr potensialının inkişafı*..............................................................................36

**8. Planın reallaşma mərhələləri, mexanizmi və inteqrativ nəticələr**

*8.1. 2022 – 2030 - cu illərə qədər LDU - nun strateji inkişaf proqramımnın reallaşma mərhələləri*.........................................................................................39

*8.2. Strateji inkişaf planın reallaşma mexanizmi*.........................................................39

*8.3. Planın reallaşmasından əldə edilən inteqrativ nəticələr*...........................................40

# GİRİŞ

Lənkəran Dövlət Universitetinin (*bundan sonra LDU*) Strateji inkişaf planı universitetin perspektiv dövr üçün qarşısında duran əsas məqsəd, vəzifə və konkret istiqamətləri formalaşdırmaqla ölkənin təhsil bazarında onun rəqabətqabiliyyətliliyinin təmin edilməsini nəzərdə tutur. Bir - biri ilə daxili vəhdət təşkil edən və funksional asılı olan təhsil, elm və innovasiya kimi üç əsas funksiya ***Strateji inkişaf planının*** əsas qayəsini təşkil edir.

Universitetin istər respublikanın, istərsə də yaxın və uzaq ölkələrin elm - təhsil məkanına inteqrasiyasına imkan verən Srtateji inkişaf planı bütövlükdə ölkənin ali təhsil müəssisələri o cümlədən LDU-nun qarşısında bu gün yeni çağrışlar nəzərə alınmaqla konkret vəzifə və öhdəliklər qoyur.

2022–2030-cu illəri əhatə edən yeni inkişaf strategiyası daxili və xarici çağrışlara cavab olaraq universitetin bütün fəaliyyət istiqamətləri (təhsil proqramları, maraqlı tərəflərin - tələbələrin, valideynlərin, işə götürənlərin, məzunların, tələbələrin, professor-müəllim heyətinin, məzunların, elmi-tədqiqat işlərinin, maliyyə - iqtisadi idarəetmənin, tədris metodiki işlərin, infrastrukturun və informasiya-texniki bazanın keyfiyyətinin yaxşılaşdırılması, kommunikasiya və sosial-tərbiyə siyasəti) üzrə innovasiya yönümlü dayanıqlı sistemin formalaşmasına xidmət göstərir.

İllər sonra universitetin necə olacağı, cəmiyyətin hansı ixtisas imkanlarına malik mütəxəssislərə ehtiyac duyacağı və universitet gələcək ixtisas sahiblərinə bu imkanları nə dərəcədə verə biləcəyi barədə indinin özündə uzaq perspektivə hesablanmış şəkildə nəzərdən keçirilməlidir. Bu məqsədlə perspektiv dövrə hədəflənən bu kimi məsələlərin həlli fərqli münasibətlər sistemi çərçivəsində daha yüksək mədəniyyət daşıyıcıları və düşüncə sahibləri hesab edilən müəllimlər, doktorantlar, magistrant və bakalavrlar üçün gələcək universitet strategiyasının işlənib hazırlanmasını obyektiv zəruriyyətə çevirir.

Regional elm və təhsil mərkəzləri kimi LDU-nun Strateji inkişaf planında iqtisadçılar, müəllimlər, aqrar mühəndislər, texnoloqlar və s. yüksək səviyyəli cəmiyyətin formalaşdırılmasına, bütün təhsil proqramları üzrə ikili təhsil sisteminə keçidi təmin etmək məqsədi ilə inkişaf etmiş universitetin yaradılmasına xüsusi diqqət yönəldilir.

Strateji inkişaf planı bütün universitet kollektivinin təlim-təhsilin ayrı-ayrı sahələrində xüsusi təcrübəyə malik aparıcı qüvvələrin məsuliyyətlə üzərində işləyərək ərsəyə gətirdikləri məhsuldar əməyin nəticəsi hesab edilməlidir.

Strateji inkişaf planı müxtəlif foks qruplarının (rektor, prorektorlar, ayrı - ayrı struktur bölmənin rəhbərləri, tələbələr və əməkdaşlar) və Lənkəran-Astara iqtisadi rayonda fəaliyyət göstərən firma və şirkət rəhbərlərinin, həmçinin menecerlərin “Akademik inkişaf”, “Fundamental tədqiqat”, “Regional inkişafa töhfə”, “Korporativ mədəniyyət”, “Effektiv menecment”, “Rəqəmsallaşdırma strategiyası” və bu kimi müxtəlif istiqamətlər üzrə rəy və tövsiyyələri əsasında işlənib hazırlanmışdır.

İnkişaf strategiyasının hazırlanması aşağıda qeyd edilən üstün prioritetlər üzrə aparılmışdır:

1. Qısa və uzunmüddətli dövrdə nailiyyətlərin əldə edilməsinə imkan verən “minimal faktorların” (daxili və xarici mühütin təhlili əsasında aşkar edilir) axtarılması - əsas fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi.
2. Məqsədin formalaşdırılması – LDU-nun strateji inkişafı, strategiyanı xarakterizə edən konkret göstəricilər toplusu və onların seçilməsinin əsaslandırılması.

3. Məqsədə çatmağa istiqamətlənmiş vəzifələrin müəyyənləşdirilməsi.

4. Müəyyənləşdirilən vəzifələrin icrasına mütəmadi nəzarət.

Birinci iki mərhələnin strateji fokusunda LDU-nun inkişafı ilə bağlı strateji məqsədlər və onların əsaslandırılması, 3-cü və 4-cü mərhələlərdə isə LDU-nun bu strategiyadan irəli gələn gələcək missiyasının reallaşmasını nəzərdə tutan cari işlər xarakterizə edilir (*Əlavə: LDU-nun 2022-2030-cu illərdə ayrı-ayrı istiqamətlər üzrə strateji inkişafını nəzərdə tutan fəaliyyət planı).*

Beləliklə, LDU-nun təhsil xidmətləri bazarında rəqabətqabiliyyətinin yüksəldilməsinə istiqamətlənən zəruri islahatlar, dəyişikliklər məhz ali tədris müəssisəsinin strateji inkişaf planının reallaşması nəticəsində konkret nailiyyətlərin əldə edilməsinə imkan yaradır. Perspektiv dövr üçün ali təhsil ocağında innovativ universitet modelinin qurulması onun fəaliyyətinin planlaşdırılmasının hər bir, xüsusi ilə missiyanın formalaşdırılması və strategiyanın işlənib hazırlanması mərhələsində, müvafiq innovativ alətlərdən istifadə edilməsini nəzərdə tutur. Praktiki olaraq strateji inkişaf planının formalaşması üzrə təqdim edilən metodik tövsiyyələrdən istifadə qarşıya qoyulan məqsədə nail olamaq üçün mövcud resursların mobilliyini, eləcə də ayrı - ayrı mərhələ üzrə strategiyanın reallaşmasında professor - müəllim heyətinin aktiv iştirakını təmin edir.

# 1. YENİ ÇAĞRIŞLAR VƏ UNİVERSİTETİN MÖVCUD VƏZİYYƏTİ

## *1.1. Universitetin missiyası, strateji məqsədlər, məqsədə çatma vasitələri, strateji fəaliyyət və dəyərlər sistemi*

**Universitetin missiyası** – regionun, dövlətin və vətəndaş cəmiyyətinin maraqları naminə tələbələrin, professor-müəllim heyətinin və əməkdaşların peşəkar - şəxsi keyfiyyətlərinin yaxşılaşdırılması və inkişafı üçün əlverişli açıq məkanı formalaşdırmaqdan ibarətdir.

**Strateji istiqamətlər:**

- təhsil fəaliyyəti;
- elmi-tədqiqat və innovasiya fəaliyyəti;
- beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi;
-kommunikasiya və reputasiyanın idarə edilməsi;
- sosial və tərbiyə işləri;
- idarəetmə sistemi və effektiv menecment.

**Strateji məqsədlər:**

1. Kadr potensialının idarəetmə sisteminin modernləşdirilməsi və inkişafı.
2. Kadr hazırlığı sisteminin transformasiyası.
3. Universitet imicinin formalaşdırılması və srtuktur baxımdan marketinq qərarları hesabına maliyyə gəlirlərinin artırılması.
4. Sosial və vətəndaş məsuliyyətinin formalaşması üçün optimal şəraitin yaradılması.
5. Universitetin dayanıqlı inkişafının iqtisadi təminatı.
6. Tədrisin keyfiyyətini artırmaq məqsədi ilə hər bir ixtisas üzrə maddi-texniki bazanın möhkəmləndirilməsi;
7. Universitetdaxili keyfiyyətin təmin edilməsi və ona nəzarət işinin təşkil edilməsi məqsədi ilə işlək mexanizmin yaradılması.

**Məqsədə çatma vasitələri**

Bütün strateji istiqamətlər və prioritet inkişaf üzrə məqsədə nail olmaq üçün LDU kollektivinin gücü yüksək akademik mədəniyyət aşılamaqla təkcə regionda deyil, eyni zamanda respublika səviyyəsində müsbət imicinin formalaşdırılmasına istiqamətlənmişdir. Bu zaman LDU-nun əsas fəaliyyət prinsipi fasiləsiz inkişaf, baza fəaliyyəti kimi kollektivdə elə bir təhsil mədəniyyəti yaratmaqdan ibarədir ki, bu zaman kollektivin hər bir üzvü öz üzərinə işlərin yerinə yetirilmə nəticələrinə görə cavabdehlik məsuliyyəti götürür və keyfiyyət ənənələrinə sadiqlik nümayiş etdirir.

***LDU-nun akademik fəaliyyətinin peşəkar kredosu***: "istedadlı tələbə - əməksevər müəllim - nailiyyətlərə sahib ölkə" kimi dayanıqlı üçbucağın məhsuldar fəaliyyət təşkil edir.

***LDU-nun akademik fəaliyyətinin dəyərləri:*** vətənpərvərlik, şəffalıq, akademik azadlıq, akademik etika, milli ənənələrə hörmət və peşəkarlıq.

***LDU -nun Strateji fəaliyyəti:***

İqtisadi artımın və sosial rifahın yaxşılaşdırılmasının mühüm təyinedici amili insan kapitalı hesab olunur. Məhz insan kapitalının inkişaf etdirilməsi və gücləndirilməsi yaxın perspektiv üçün universitetin əsas missiyasını müəyyənləşdirir. Lənkəran-Astara iqtisadi rayonunda insan kapitalının inkişaf etdirilməsi zamanı yaranan sistemli problemlərdən biri hazırda gənclərin yüksək təhsil alması və iş yerlərinin tapılması üçün digər regionlara, xüsusi ilə də yaxşı inkişaf etmiş meqapolislərə axınından ibarətdir. Bu baxımdan universitet məzunların iş yerləri ilə təmin olunmasına zəmanət verməklə yüksək keyfiyyətli təhsil mərkəzinə çevrilməyə səy göstərir, yeni iş yerlərinin yaradılması və müasir rəqəmsal platformalardan istifadə etməklə bütün ömürboyu təhsil sisteminin, həmçinin qarışıq təhsil

yönümlü **Digital modelin** tətbiqi üçün imkanlar axtarır. Universitet institusional aspektdə fəaliyyətini əlavə təhsil mərkəzlərini, biznes üçün ***Executive təhsili*** inkişaf etdirməklə fasiləsiz təhsilə fokslanır.

Universitetin malik olduğu ən böyük resurs tələbə cəmiyyəti olduğundan onun üçün fərdi təhsil trayektoriyası qurulur, konkret təyinatlı sosial layihələrin həlli vasitəsi ilə təhsil mühiti, sosiallaşmaya yanaşmalar dəyişir. Tələbələrin yüksək təhsil almaları məqsədi ilə optimal həyat dizaynı üçün şərait yaradılır, dəyərlərin artırılması və kompetentsiyaların güclənməsi üçün cəlbedici sosial, kreativ və yaradıcı mühit formalaşdırılır.

Regional təhsil korporasiyası hesab edilən Lənkəran Dövlət Universitetinin inkişaf modeli Lənkəran-Astara iqtisadi rayonunun ümumi inkişafını nəzərdə tutan sosial - iqtisadi dəyərlər əsasında müəyyənləşir. Ali təhsil ocağının məqsədi yeni unikal əsas və əlavə təhsil proqramlarının formalaşdırılması, perspektivli hesab edilən elmi - metodiki xarakterli tədqiqatların yerinə yetirilməsi ilə regionda fasiləsiz təhsil mərkəzi kimi mövqeyinin möhkəmləndirilməsindən ibarətdir.

Lənkəran Dövlət Universitetinin strateji inkişafı universitetin modernləşdirilməsi və rəqəmsal transformasiyası məsələləri arasında harmoniya yaradan yeni inkişaf konsepsiyasını formalaşdırmaqla tələbələr, müəllimlər və region üçün aşağıdakıları əldə etməyə imkan verir:

- ***tələbələr üçün***: müxtəlif sosial mədəni praktikanın, formal və qeyri-formal təhsil çərçivəsində əldə edilən təcrübələrin refleksi, inteqrasiyası əsasında tələbələrə yeni inkişaf imkanlarını yaratmağa;
- ***müəllimlər üçün***: ictimai idarəetmənin əsasını təşkil edən güclü professor - müəllim heyətinin peşəkar ünsiyyətlərini genişləndirməyə, karyera və yaradıcılıq imkanlarını artırmağa;
- ***region üçün***: regionun sosial-iqtisadi inkişafı baxımından innovativ təhsil şəbəkəsi, müxtəlif insanlar və məqsəd auditoriyası üçün çoxsaylı formatları reallaşdırmağa imkan yaradan çevik təhsil arxitekturasını qurmağa yönəldilir.

## *1.2. Strateji inkişafın qarşısında duran vəzifələr*

- Lənkəran-Astara iqtisadi rayonunda təhsil siyasətinin formalaşdırılması və reallaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə strateji əməkdaşlıq münasibətlərinin genişləndirilməsi;
- regionda akademik dəyərlərə və üstünlüyə malik mərkəzlərin yaradılması;
- insan kapitalının inkişaf etdirilməsi - yüksək sosial və vətəndaş məsuliyyətinə, mədəni dəyərlərə malik şəxsiyyətin formalaşdırılması;
- uzunmüddətli dövr üçün regionun ixtisaslı kadrlara tələbatını planlaşdırmağa imkan verən kompleks tədbirlər sisteminin işlənib hazırlanması;
- regional əmək bazarının tələbatını ödəmək üçün təhsil alanların alıqları ixtisaslara uyğun seçilməsini nəzərdə tutan sistemin təkmilləşdirilməsi;
- regionun orta, peşə və orta ixtisas təhsili müəssisələri ilə qarşılıqlı fəaliyyətin sosial əməkdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi;
- qabaqcıl elmi - texnoloji tədqiqatların təşviq edilməsi;
- təhsil müddəti bitdikdən sonrakı illərdə məzunların müvafiq ixtisaslar üzrə elmi - metodiki təminatının yaxşılaşdırılması;
- universitet daxilidə formalaşmış korporativ mədəniyyətin gücləndirilməsi;
- sosial infrastrukturun (gələcəkdə kompus infrastrukturunun) inkişaf etdirilməsi;
- rəqəmsal texnologiyalardan istifadə etməklə universitetin idarəetmə sisteminin təkmilləşdirilməsi;

- sosial - humanitar park kimi qəbul edilən universitetin brendinin yaradılması və inkişaf etdirməsindən ibarətdir.

### *1.3. Universitetin GZİT təhlili: üstünlüklər və çatışmazlıqlar, imkan və məhdudiyyətlər*

Lənkəran Dövlət Universiteti Respublika Nazirlər Kabinetinin 25 sentyabr 1991-ci il tarixli 319 saylı qərarı ilə Bakı Dövlət Universitetinin filialı kimi fəaliyyətə başlamış, Nazirlər Kabinetinin 23 iyul 1992-ci il tarixli 403 saylı qərarı ilə müstəqil Dövlət Universitetinə (LDU) çevrilmişdir.

213 nəfərdən artıq professor-müəllim heyətini (onlardan: 10 nəfəri elmlər doktoru, professor, 65 nəfər elmlər namizədi, dosent, 12 nəfər fəlsəfə doktoru, baş müəllim, bir nəfər fəlsəfə doktoru, müəllim, 45 nəfər baş müəllim, 81 nəfər müəllim) özündə birləşdirən universitet 40 bakalavriat, MBA-da daxil olmaqla 26 magistratura və 25 doktorantura təhsil proqramları üzrə ali təhsil sferasında təhsil fəaliyyətini həyata keçirmək hüququ verən dövlət lisenziyasına malikdir (*qrafik 1).* Universitetin nəzdində 5 fakültə (İqtisadiyyat və idarəetmə; Aqrar və mühəndislik; Tarix - coğrafiya və incəsənət; Filologiya və ibtidai təhsil, Təbiyyət) və bir Sosial və Aqrar – Texnoloji kollec fəaliyyət göstərir.




**Qrafik 1. LDU-nun professor-müəllim heyəti (nəfərlə)**

Lənkəran Dövlət Universitetinin 40-dan artıq xarici ölkələrin universitetləri və elm mərkəzləri ilə təhsil, elm və mədəniyyət sahəsində əlaqələri mövcuddur. Meksika, Macarstan, Polşa, Türkiyə, Rusiya, Ukrayna, Belarusiya, Gürcüstan və s. ölkələrin bir sıra ali məktəbləri ilə əməkdaşlıq sahəsində müqavilələr bağlamışdır. Xəzəryanı Ölkələrin, Avrasiya Universitetləri Assosasiyasının, Rusiya Azərbaycan Ali Təhsil Müəssisələri Assosiasiyasının, Qafqaz Universitetlər Birliyinin üzvü olan universitet qeyd edilən assosiasiyaların işində aktiv iştirak etməklə yanaşı birgə konfranslar təşkil edir. Macarıstanın Kapoşvar Universiteti ilə ikili diplomların həyata keçirilməsi məqsədilə anlaşma memarandumu imzalanmış, elmi-tədqiqat sahəsində işgüzar əlaqələr formalaşmışdır. Bağlanmış müqaviləyə əsasən tədris prosesində, bakalavr buraxılış işləri, magistr disettasiyalarının müdafiəsində və universitetdə təşkil olunan elmi konfranslarda iştirak etmək üçün Lənkəran Dövlət Universitetinə dəvət olunan Türkiyə universitetlərinin əməkdaşları LDU-da dissertant və dokorantlara elmi rəhbərlik etməklə bərabər, tələbələrə müvafiq istiqamətlər üzrə kurslar keçirlər. Mevlana və Erasmus + layihələri çərçivəsində xarici ölkələrə qısa və uzunmüddətli (1 həftədən 3

ilədək) ezam olunan LDU-nun professor-müəllim heyəti və tələbələrdə Türkiyə Cümhuriyyətinin Beykent, Kocaeli, Sakarya, Sinop, Kafkas Universitetlərində müvafiq ixtisaslar üzrə dərslər keçmişlər. Avropa İttifaqının Tempus proqramı çərçivəsində RİTSA, ENOTES, ESFİDİP kimi layihələrdə iştirak edən LDU, hal-hazırda ERASMUS + proqramı çərçivəsində ECAR layihəsinin aktiv iştirakçısıdır.

LDU iqtisadi sahələrin innovasiya-texnoloji inkişafında iştirak edərək regionun elmi-pedoqoji və mühəndis potensialının yüksəlməsinə şərait yaratmaqla regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsini təmin edən regional innovasiya sisteminin inkişafına köməklik göstərir.

"2022-2030-cu illər ərzində universitetin strateji inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və həmçinin fəaliyyət istiqaməti üzrə məqsəd və vəzifələrin formalaşdırılması LDU-nun həyat fəaliyyətinin ümumi şərtləri, onun zəif və güclü cəhətləri nəzərə alınmaqla, imkan və mümkün təhlükələrlə əlaqədar risklərin təhlili əsasında həyata keçirilir.

**Güclü tərəflər (*S - strength*):**

- universitetin dinamik inkişaf edən iqtisadi regionda yerləşməsi;
- steykholderlər (tərəfdaşlar) tərəfindən mütəmadi dəstəklənməsi;
- universitetin inkişaf etmiş innovativ ekosistemə malik olması (3 tədris-labaratoriya korpusu, 1500 m$^2$ idman zalı, 156 yerlik bir tələbə yataqxanası, 18 nəfər ailəli müəllimlər üçün nəzərdə tutulmuş 800 m$^2$ ev, bütün tədris korpusları üzrə 730 m$^2$, bir dəfəlik 270 nəfərin oturmasına imkan verən ictimai iaşə məntəqəsi, 8606.4 m$^2$ təchiz edilmiş geniş auditoriya və laboratoriyalar, 2.5 hektar açıq səma altında bitkiçilik sahəsi və s.);
- universitetin regionda yüksək nüfuz sahibi olması;
- struktur bölmələr, fakultələr və fakultədaxili kafedralar arasında məsuliyyət və cavabdehlik məsuliyyətinin rəsmi sənədlərlə bölüşdürülməsi sisteminin mövcudluğu;
- peşəkar və ali təhsilli mütəxəssis hazırlığı spektrinin genişliyi və əlavə təhsil alma imkanları;
- formalaşmış professor-müəllim heyətinin müasir tələblərə cavab verə bilən peşəkarlığı;
- Təhsil Nazirliyinin qrifi ilə çap edilən dərslik, dərs vəsaiti və tədris proqramlarının varlığı;
- prioritet istiqamətlər üzrə elmi - tədqiqat fəaliyyətinin yüksək məhsuldarlığı;
- peşəkar hazırlıq üzrə əlavə təhsil xidmətləri sisteminin mövcudluğu;
- 55142 nüsxəyə malik fundamental kitabxana fondunun mövcudluğu, internetə o cümlədən Azərbaycan Respublikasının Dövlət kitabxanasının informasiya resurslarına çıxış imkanları olan kompyuterləşdirilmiş kitabxana zalı;
- elektron informasiya təhsil mühitinin, o cümlədən təhsil - elm - tərbiyə proseslərinin vahid informasiya təminatı sisteminin mövcudluğu;
- professor-müəllim heyətinin reytinqi, eləcə də pedoqoji fəaliyyətin təhlili üçün tələbə sorğularının keçirilməsi və naticələrin qiymətləndirilməsi;
- tələbələr arasında populyarlıq qazanan bədii özfəaliyyət və idmanla məşğul olmaq üçün geniş imkanların yaradılması;
- LDU-nun kütləvi informasiya vasitələri və PR-lə əlaqələrini aktivləşdirmək hesabına imicinin daha da yüksəldilməsi.

**Zəif tərəflər (*W - weakness*):**

- bu və ya digər istiqamət üzrə tələbələrin hazırlıq səviyyəsinin aşağı olması;
- professor - müəllim heyətinin yaş həddinin yüksək olması;
- köhnə təhsil texnologiyasının mövcudluğu;

- idarəetmənin qeyri-təkmil təşkilatı strukturunun (tədris-metodiki şöbə, fakultə və kafedralar, şöbələr -Fənn Birlşmə Komissiyaları), təhsil xidmətlərinin bazara irəlilədilməsi ilə bağlı marketinq fəaliyyətinin, köhnə universitet saytının və s. müasir tələblərə cavab verməməsi;

- məzunların karyera yüksəlişi və məşğulluq məsələlərinə kifayət qədər diqqətin ayrılmaması, onların bilikləri, kompetensiyaları və imkanlarından zəif istifadə olunması;

- həm regionda, həm də respublikada fəaliyyət göstərən orta ixtisas və orta təhsil müəssisələri məzunlarının universitetə cəlb edilməsi ilə bağlı aktiv reklam fəaliyyətinin həyata keçirilməməsi;

- xeyriyyə fondunun olmaması;

- fakultə elmi şuralarının fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılmasında ətalətlik;

- aşağı kurslarda kuratorluq sisteminin tətbiq edilməməsi;

- nou - hau (know-how) və fundamental tədqiqat işlərinin kommersiyalaşdırılmaması;

- universitet gəlirlərinin zəif diversifikasiyası;

- universitet büdcəsinin təhsil alanların təhsil haqqından asılılığı;

- professor-müəllim heyətinin rus və ingilis dili səviyyələrinin zəif olması;

- universitetin ***QS rankings və web of metrics*** istisna olmaqla digər beynəlxalq reytinqlərdə iştirak etməməsi;

- universitetin beynəlxalq elmi-texniki təhsil proqramlarında, xarici fond və təşkilatların qrant layihələrində aktiv iştirak etməməsi;

- universitetdə kafedral idarəetmə sisteminin zəif olması;

- pilot - layihə idarəetmənin olmaması;

**İmkanlar (*O - opportunities*):**

- Lənkəran – Astara iqtisadi rayonu üçün elm-təhsil habına (mərkəzinə) çevrilmək:

- regionda fəaliyyət göstərən firma və şirkətlərlə əməkdaşlığın gücləndirilməsi, tətbiqi tədqiqatların inkişafı;

- iqtisadiyyatın inkişafı, yeni fəaliyyət növlərinin təşəkkül tapması ilə əlaqədar əsas və əlavə peşəkar təhsil proqramlarının spektrinin genişləndirilməsi;

- müxtəlif təhsil növləri və formalarının inkişaf etdirilməsi (yaşlıların təhsil alması, qabaqlayıcı təhsil, məsafə texnologiyasından istifadə etməklə təhsil və s.);

- təhsil qanunu və peşəkar standartların tələblərinə uyğun təhsil proqramlarının hazırlanması və reallaşdırılması;

- ikili və praktika yönümlü təhsil proqramlarında aktiv iştirak edilməsi;

- insan kapitalına investisiyaların yatırılması: fasiləsiz təhsilin inkişaf etdirilməsi, effektiv ekosistemin və infrastrukturun yaradılması;

- peşəkar kadrların hazırlanması ilə əlaqədar müəssisə və təşkilatlarla strateji əməkdaşlıq, kompetentsiya əsasında məzun modelinin işlənib hazırlanması;

- işə götürən müəssisələrin (tikinti, turizm, mədəniyyət və incəsənət, ictimai iaşə, yeyinti sənayesi, orta və ümumtəhsil müəssisələri və s.) dinamik inkişafı;

- texnoparklar yaratmaqla onun nəzdində kiçik innovasiya müəssisələrinin inkişaf etdirilməsi;

- biznes proseslərin avtomatlaşdırılması hesabına universitetin operativ xərclərinin azaldılması;

- müxtəlif fəaliyyət istiqamətləri üzrə konsaltinq xidməti bazarının yaradılması və inkişaf etdirilməsi;

- müxtəlif tərbiyə formalarını, tələbə təşkilatları və özünüidarəetmə, könüllülər hərəkatının inkişaf etdirilməsi;

- təhsilin beynəlmiləlləşdirilməsi;

- universitetin tələbə kontingentini artırmaq məqsədi ilə regionun orta məktəblərində təhsil alan şagirdlərinin universitetə ekskursiyalarının təşkil edilməsi;

- rəqəmsal texnologiyanın tətbiqi imkanlarının genişləndirilməsinə nail olunması;

- xeyriyyə fondunun yaradılması;

- regionun inkişafı üçün lazım olan ixtisasların şəhər (region) və respublika səviyyəsində müdafiə edilməsi;

- innovativ işləmələrə tələbi nəzərə alaraq elm-təhsil mərkəzini yaratmaqla universitetin elm və texnologiyanın prioritet istiqamətləri üzrə regionda akademik mərkəzə çevrilməsi;

- "Məzun - Karyera Mərkəzi"nin yaradılması və biznes strukturlarının nümayəndələri ilə birlikdə dövrü sərgilərin keçirilməsi.

**Təhlükələr (*T -threats*):**

- demoqrafik böhran, region əhalisinin meqopolislərə axını, tələbələrin sayının azalması;

- Covid - 19 pandemiyası nəticəsində abituriyent hazırlığı səviyyəsinin aşağı düşməsi;

- ali təhsil ocaqlarında professor - müəllim heyətinin sosial statusunda müşahidə edilən aşağı düşmə meylləri nəticəsində təhsil fəaliyyətinin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı motivasiyanın azalması;

- regonal əmək bazarının tutumunun kiçik olması və bu əsasda məzunların bilik və kompetentsiyasına tələbin kifayət qədər aşağı düşməsi;

- demoqrafik vəziyyət və əhalinin tədiyyə qabiliyyətinin aşağı düşməsinə görə büdcədənkənar maliyyələşmə imkanlarının məhdudluğu;

- regionda fəaliyyət göstərən sənaye müəssisələrinin azsaylı olması və onların da qeyri - sabit iqtisadi fəaliyyət göstərmələri;

- ixtisaslı kadr hazırlığına dövlət sifarişlərinin azalması.

# 2. TƏHSİL FƏALİYYƏTİ

## *2.1. Strateji inkişaf planı çərçivəsində yeni məzun modeli: strateji məqsəd və vəzifələr*

Rəqabətin kəskinləşdiyi, iqtisadi, sosial və digər ictimai problemlərin dərinləşdiyi qloballaşma şəraitində ali tədris müəssisələrinin innovativ sistemində xüsusi əhəmiyyət daşıyan təhsil fəaliyyətinin rolu sürətlə artır. Hal-hazırda təhsil sistemi gələcək mütəxəssislərdə kreativ və sosial kapitalın formalaşmasına xidmət edən təhsil prosesinin məqsəd və vəzifələrinin keyfiyyətcə yenilənməsinə, təhsil texnologiyalarının modernləşdirilməsinə istiqamətlənmişdir. Rəqəmsal texnologiyaların sosial-iqtisadi fəaliyyətin müxtəlif sahələrinə nüfuz etməsi və iqtisadi təhlükəsizlik sahəsində yeni çağrışların təşəkkül tapması ölkə iqtisadiyyatının innovativ inkişafı üçün yeni metodoloji əsasların formalaşdırılmasını tələb edir. Bununla əlaqədar olaraq müasir cəmiyyət, iqtisadiyyat və əmək bazarının tələbləri, eləcə də insan kapitalının formalaşması baxımından LDU-nun təhsil sisteminin modernləşdirilməsinə obyektiv zəruriyyət yaranmışdır.

LDU-nun təhsil siyasəti tələbə və magistrantlarda təhsil, tədqiqat, komanda işi və özünüifadəyə yönəlik digər yaradıcı fəaliyyət zamanı yeni kompetentsiyalara (fərdi bilik, bacarıq və vərdişlər) malik məzun modelinin formalaşdırılmasından ibarətdir. Yeni ixtisasların əmələ gəlməsi və işəgötürənlər tərəfindən universitet məzunlarına konkret peşə tələblərinin artması əmək bazarının inkişaf meyllərinə uyğun olaraq LDU-da bu modelin tətbiqini şərtləndirir.

Bilik iqtisadiyyatının, o cümlədən rəqəmsal iqtisadiyyatın müasir inkişaf mərhələsi aşağıdakı bir sıra mühüm ənənələri formalaşdırmışdır:

- peşə - ixtisas bazarında hər 3 - 4 ildən bir baş verən dəyişikliklər;
- məzunların kompetentsiya matrisasında dəyişikliklərin tezləşdirilməsinə yaranan tələbat;
- əmək bazarı inkişaf etdikcə kreativ və innovativ düşüncəli məzunlara daha çox ehtiyacın duyulması;
- müxtəlif bilik sahələrində bacarıq və vərdişlərin vəhdəti və s.

Regionun və bütövlükdə ölkə iqtisadiyyatının prioritet sahələrində yüksək və dayanıqlı tələbə malik ali təhsilli kompetent kadr hazırlığının həyata keçirilməsi üçün Lənkəran Dövlət Universitetinin təhsil fəaliyyətinin əsas strateji məqsədləri aşağıdakılardan ibarətdir:

**Strateji məqsəd:**

- əmək bazarının və peşə standartlarının tələblərinə uyğun yüksək keyfiyyətli mütəxəssis hazırlığının təmin edilməsi;
- təhsil alanlarda kreativ təfəkkürün formalaşması və inkişafı üçün imkanların yaradılması;
- gələcək mütəxəssislərdə innovativ düşüncə stilinə və innovasiya fəaliyyətinin həyata keçirilməsinə motivasiyanın formalaşdırılması.

**Strateji vəzifələr:**

- region və ölkə tərəfindən tələb olunan ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasına yeni yanaşmanın formalaşdırılması;
- yeni nəsil mütəxəssis hazırlığının ***variativ*** modelinin inkişaf etdirilməsi;
- müxtəlif məqsəd qruplarının peşəkar, modul təhsilə çoxkanallı çıxışını təmin etmək üçün fərdi təhsil marşurutları sisteminin yaradılması;

- universitetin imicinin yüksəldilməsi üçün hər bir ixtisasın potensialının artırılması;
- təhsil xidmətlərinin ixracının, tələbə və müəllimlərin akademik mobilliyinin yüksəldilməsi;
- hər il təhsil proqramlarının keyfiyyətinin audit yoxlamalarına cəlb edilməsi;
- mütəxəssis hazırlığının strukturu, məzmunu, mahiyyəti, forma və təşkili texnologiyasının qiymətləndirilməsi;
- təhsil proqramlarının həyata keçirilməsi keyfiyyətinə monitorinqin gücləndirilməsi;
- ***blended learning*** - qarışıq təhsil formalarını tətbiq etmək;
- universitetin fakultələri ilə işəgütürənlər arasında qarşılıqlı fəaliyyətin nəticəsi olaraq praktika yönümlü təhsil proqramlarının gücləndirilməsi;
- fərqli cəhətləri və rəqabət üstünlüklərini aşkar etməklə hər bir fakultənin (şöbənin) xüsusi ekosisteminin yaradılması;
- fakultələrin (şöbələrin) inkişaf strategiyasının işlənib hazırlanması;
- orta məktəblərdə və kollecdə baza kafedraları şəbəkəsinin yaradılması;
- biznes qurumları və təhsil müəssisələri ilə strateji əməkdaşlığın inkişaf etdirilməsi;
- tələbə və steykholderləri təhsil proqramlarının işlənib hazırlanması və keyfiyyətinin təmin edilməsi işinə cəlb edilməsi;
- yeni innovatoiv təhsil proqramlarının işlənib hazırlanması, inteqrativ təhsil formalarının tətbiq edilməsi;
- tədris laboratoriyalarının modernləşdirilməsi;
- həm tələbə praktikantlar, həm də müəllimlər üçün orta məktəblərin bazasında pedoqoji ustalıq laboratoriyasının yaradılması.

Qoyulan məqsədə çatmaq üçün universitet yüksək keyfiyyətli təhsil proqramlarının reallaşdırılmasını təmin etməlidir:

***1. Professor - müəllim heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi:***

- təcrübə artırma və təkmilləşdirmə kursları, eləcə də peşəkar ustalıq müsabiqələri təşkil etməklə peşəkarlıq və pedaqoji fəaliyyətin səviyyəsinin yüksəldilməsi;
- professor-müəllim heyətinin xarici ölkələrdə təkmilləşdirmə kursları keçmələrinin təmin edilməsi;
- müsabiqə, qrant lahiyələri, təsərrüfat müqavilələri, elmi tədbirlərdə iştirak etməklə elmi-tədqiqat xarakterli işlərinin yerinə yetirilməsi;
- dərslik, dərs vəsaitləri və elmi işlərin nəşr edilməsi;
- ustad mühazirə və ya məşğələ dərslərinin keçirilməsi.

***2. Tədris prosesinin maddi - texniki bazasının müasir tələblər səviyyəsinə yüksəldilməsi:***

- tədris labaratoriyaları və auditoriyalarının modernləşdirilməsi;
- yeni tədris avadanlıqları və texniki vasitələrin alınması;
- yüksək sürətli internet şəbəkəsinə çıxışın təmin edilməsi;
- tədris proseslərinin regionun istehsal və xidmət yönümlü aparıcı müəssisə və təşkilatları ilə inteqrasiyasının təmin edilməsi;
- tədris prosesinin optimal təklili məqsədi ilə kitabxana, informasiya və proqram fondunun genişləndirilməsi;
- əmək bazarına yüksək ixtisaslı kadrları təklif etmək məqsədi ilə məzun fondunun formalaşdırılması;
- yeni tədris korpuslarının tikintisi və istismara verilməsi.

**3. *Tələbələrin, magistrlərin, doktorantların intellektual səviyyəsinin yüksəldilməsi:***

- orta təhsil müəssisələrində peşəyönümlü tədbirlərin sistematik həyata keçirilməsi;
- təhsil proqramlarının reallaşması üzrə işəgötürənlər və əməkdaşlarla ikitərəfli qarşılıqlı əməkdaşlıq münasibətlərinin genişləndirilməsi;
- tədris prosesinə motivasiyanın yüksəldilməsinə köməklik göstərən biliyinin qiymətləndirilməsində bal - reytinq sisteminin tətbiq edilməsi;
- informasiya, interaktiv, distansion və s. müasir təlim texnologiyalarından istifadə etməklə aparıcı müəllimlərin rəhbərliyi altında təhsil alanlarla müstəqil iş sisteminin qurulması;
- regionda abituriyentlər və məzunlarla məsləhət xidməti şəbəkəsinin yaradılması və inkişaf etdirilməsi.

## *2.2. Fasiləsiz təhsil sisteminin inkişaf etdirilməsi*

LDU-da akademik təhsilin qurulması prinsipi hər bir ixtisas üzrə məzunların yeni kompetentsiyalara uyğun formalaşması üçün əsas olmalıdır. LDU-da təhsil alanların kompetensiyalarının zənginləşməsinə xidmət edəcək fasiləsiz təhsil aşağıdakı fəaliyyət istiqamətlərini özündə ehtiva etməlidir:

- bütün təhsil səviyyələrində kompetent yanaşmanın varisliyinin təmin edilməsi;
- professor-müəllim heyəti tərəfindən fasiləsiz təhsilin təmin edilməsi üzrə yeni yanaşmaların tətbiqi;
- mahiyyət baxımından müasir iqtisadiyyatın inkişaf meyllərinə cavab verən yeni təhsil trayektoriyalarının müəyyən edilməsi.

Fasiləsiz təhsilin təmin edilməsinin ilkin mərhələsi abituryentlərin LDU-ya qəbul olmaları üçün ali məktəbə qədər müntəzəm hazırlıq və onlarda kreativ düşüncənin inkişaf etdirilməsi istiqamətində peşəyönümlü tədbirlərin reallaşdırılmasını nəzərdə tutur.Təhsil səviyyələri (orta, peşə, orta ixtisas və ali) üzrə təhsil proqramları arasında ahəngdarlığın, sinxronluğu təmin edilməsi və bununla bağlı konkret mexanizmin formalaşdırılması universitetdə keyfiyyətli təhsilin inkişaf etdirilməsinin əsas vəzifəsi hesab olunur. Təhsil alanların peşəkarlıq səviyyəsinin fasiləsiz yüksəldilməsinə xidmət göstərən təhsil proqramlarının tədris-metodiki təminatında varisliyə, qazanılan təcrübə və vərdişlərin qorunub saxlanılmasına ciddi əməl edilməlidir. Bu zaman universitetdə mövcud təhsil proqramlarının təhsil standartları və əmək bazarının tələblərinə uyğun müntəzəm olaraq yeniləşdirilməsi, aktuallaşdırılması ilə əlaqədar konkret tədbirlər həyata keçirilməlidir. Bunun üçün ilk növbədə müxtəlif təhsil səviyyələrində istifadə olunan təhsil proqramlarının məzmun ehtibarı ilə bir-birini təkrarlaması riski mimimuma endirilməlidir.

Məsafədən təhsil texnologiyasından istifadə etməklə fiziki imkanları məhdud insanlar üçün fasiləsiz təhsilin (inkluziv təhsil) təmin edilməsi mövcud təhsil proqramlarına adaptasiya olunmuş yeni təhsil proqramlarının işlənib hazırlanmasını tələb edir.

Təhsil alanların bilik və bacarıqlarının spektrinin variativliyini genişləndirmək üçün təhsilin praktika yönümlülüyünə, həmçinin təhsil alanların hərtərəfli özünü inkişafına istiqamətlənən əlavə təhsil proqramları işlənib hazırlanmalı və tətbiq edilməlidir. Əlavə təhsil LDU-nun tələbələrinin əlavə tədris kurslarına (onların bir hissəsi tematik baxımdan tələbənin təhsil aldığı tədris proqramlarının istiqaməti ilə əlaqəli olmayada bilər) cəlb edilməsini nəzərdə tutur. Perspektiv dövrdə əlavə təhsil LDU-nun müxtəlif səviyyəli təhsil proqramlarının reallaşmasının komplementar formasına şevrilə bilər.

2030-cu ilə qədər fasiləsiz təhsil sisteminin strateji inkişafı ilə bağlı qarşıda duran əsas məsələ orta, peşə, orta ixtisas və ali təhsillərinin inteqrasiyası və onun dərinləşməsindən ibarətdir.

Mövcud təhsil proqramları çərçivəsində təhsil alanların əlavə kompetensiyalara yiyələnməsi məqsədi ilə universitetin nəzdində fəaliyyəti göstərəcək "Fasiləsiz təhsil institutunun" yaradılması məqsədəmüvafiq olardı. "Fasiləsiz təhsil institutu"nun təşkilatı strukturu aşağıdakı peşəkar hazırlıq mərkəzlərinin yaradılması və inkişafını nəzərdə tutur:

- maliyyə və iqtisadiyyat sahəsində peşəkar kompetentsiyaların inkişafını nəzərdə tutan tədris - metodiki mərkəz;
- kreativ kompetentsiya mərkəzi;
- əlavə tədris mərkəzi.

LDU-da tədris prosesnin praktika yönümlülüyünü təmin etmək məqsədi ilə aşağıdakı səviyyələr üzrə müəllimlər üçün fasiləsiz təhsil proqramları işlənib hazırlanmalıdır:

- peşəkarlıq səviyysəinin yüksəldilməsi (təlimin keyfiyyətinin yaxşılaşdırılması, həmçinin tədris prosesində yeni metodların mənimsənilməsinə istqamətlənən proqramların reallaşdırılması);
- biznes kurslar (əmək bazarının nümayəndələrinin təşəbbüsü əsasında biznes treyninqlərin keçirilməsi);
- həm ölkə, həm də beynəlxalq səviyyədə təcrübə keçmə (elmi-pedoqoji fəaliyyətin istiqamətindən asılı olaraq müəllimlər üçün müntəzəm təcrübə keçmə kurslarının təşkili).

Təhsil proqramları elm-təhsil ictimaiyyəti, müəssisələr - işəgötürənlərlə qarşılıqlı fəaliyyətin dərinləşməsi hesabına müəllimlərdə praktiki bilik və peşəkar vərdişlərin artrılmasını təmin edir. Professor - müəllim heyəti üçün fasiləsiz təhsil proqramları professor - müəllimlər və işəgötürənlər arasında praktik təcrübə ilə bağlı müxtəlif mübadilə formalarının tətbiqinə yönəldilməlidir. Belə qarşılıqlı fəaliyyətin prioritet forması səlahiyyətli müəssisələr tərəfindən professor - müəllim heyəti üçün həm biliklərin ötürülməsi, həm də məsafədən təhsil vasitəsi kimi tematik biznes - kursların təşkili hesab olunur. Fasləsiz təhsilin belə forması fənlərarası bilik sisteminə əsaslanan müəllimlərin peşəkar ustalığının yüksəldilməsinə imkan verir.

### *2.3. Yeni təhsil şəbəkəsi formasının inkişafı*

Şəbəkə əməkdaşlığının inkişafı təhsil sferasında qarşılıqlı fəaliyyətin yeni forması hesab edilir. O, bir tərəfdən aparıcı milli və dünya təhsil müəssisələrinin təhsil, kadr resurslar və kompetensiyalarından kollektiv istifadə edilməsinə imkan verməklə universitetin rəqabətqabiliyyətliliyini yüksəldir, digər tərəfdən təhsil müəssisələri arasında əməkdaşlıq şəbəkəsi çərçivəsində keyfiyyətli təhsil hazırlığını təmin edir. LDU-nun şəbəkə təhsil sistemi aşağıdakı prinsiplər əsasında qurulmalıdır:

- könüllülük (şəbəkədaxili qarşılıqlı əməkdaşlıq könüllülük əsasında həyata keçirilməlidir);
- açıqlıq (bilik, təcrübə, resurs mübadiləsi informasiya şəffaqlığı və açıq işgüzarlıq əsasında reallaşdırılmalıdır);
- etik (şəbəkə əməkdaşlığı müxtəlif region və ölkələri təmsil edən nümayəndələrin etik normasını nəzərə alır);
- milli və regional dəyərlərə hörmət;
- komplimentarlıq (tərəfdaş universitetlər arasında peşəkar qarşılılı əlaqələri müdafiə etmək, qarşılıqlı fayda əsasında əməkdaşlığı təmin etmək).

LDU-nun iştirakı ilə şəbəkə əsaslı qarşılıqlı faydalı fəaliyyət işgüzar əməkdaşlığın praktik yönümlülüyü və çeviklik (kooperasiyanın forma və mexanizmləri seçilən zaman) prinsipinə uyğun həyata keçirilməlidir. Şəbəkə əsaslı qarşılıqlı fəaliyyət strateji plan və

tədbirlərin ali tədris müəssisələri, elmi təşkilatlar və biznes ictimayətinin nümayəndələri ilə malik olduqları resurs çərçivəsində birgə reallaşdırılmasını nəzərdə tutur. LDU-nun kənar təşkilatlarla şəbəkə əsaslı qarşılıqlı fəaliyyəti aşağıdakı əməkdaşlıq formalarını özündə ehtiva edir:

- şəbəkə təhsil proqramlarının işlənib hazırlanması və birgə reallaşdırılması;
- ölkə və xarici təşkilatlarla şəbəkə əməkdaşlığının qurulması.

LDU-nun tərəfdaş universitetlərlə şəbəkə əsaslı qarşılıqlı fəaliyyətin effektivliyinin yüksəldilməsi məqsədi ilə ilk növbədə:

- yeni çağrışlar nəzərə alınmaqla şəbəkə əsaslı qarşılıqlı fəaliyyət sahəsində LDU-nun normativ və tədris - metodiki sənədlərin yenidən işlənməsi;
- qarşlıqlı fəaliyyət şəbəkəsinin iştirakçılarının tam və konstruktiv əməkdaşlığı üçün əlverişli infarstrukturun formalaşdırılması;
- şəbəkə təhsil proqramlarının kadr təminatına monitorinqin müntəzəm təşkil edilməsi;
- qarşılıqlı fəaliyyət şəbəkəsi iştirakçılarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi mexanizminin formalaşdırılması və bunun üçün mütərəqqi və innovativ təhsil formalarından istifadə edilməsi.

LDU-nun şəbəkə təhsil proqramı məqsəd qruplarının müəyyənləşdiriməsinə yönəlməli və müasir informasiya texnologiyalarının tətbiqi ilə fasiləsiz təhsil konsepsiyası çərçivəsində reallaşdırılmalıdır. Belə əməkdaşlıq forması tərəfdaş universitetlərlə tədris fəaliyyətinin planlaşdırılması və reallaşdırılması (tədris planlarının, işçi proqramların işlənib hazırlanmasıda daxil olmaqla) baxımından mütəmadi olaraq ənənəvi və onlayn formatda birgə iclasların keçirilməsini nəzərdə tutur. LDU-nun digər universitetlərlə şəbəkə əsaslı qarşılıqlı fəaliyyəti çeşidli kompetensiyalara malik universitet məzunlarının milli iqtisadiyyatın prioritet sahələrində iş qurmaları üçün peşəkar mütəxəssis hazırlığını nəzərdə tutur.

Şəbəkə təhsil proqramlarının birgə reallaşdırılması bir tərəfdən LDU-u ilə digər universitet tərəfdaşların təhsil resurslarını effektiv şəkildə birləşdirməklə praktikayönümlü təhsil xidmətlərinin göstərilməsini, digər tərəfdən isə birgə struktur bölmələrin (baza kafedrası, laboratoriya, elm - təhsil mərkəzi və s.) yaradılmasını nəzərdə tutur.

Beynəlxalq şəbəkə təhsil proqramı çərçivəsində LDU-nun yüksək potensiala malik kadr hazırlığı istiqamətində tərəfdaş universitetlərlə birgə təhsil fəaliyyətinin keyfiyyəti sinergetik effektivliyin əldə edilməsi hesabına təmin edilir.

Universitetdə həm təhsil alanların, həm də professor-müəllim heyətinin peşəkar kompetensiyalarının inkişaf etdirilməsinə xidmət göstərən və kollektiv təsiretmə məqsədi daşıyan şəbəkə əməkdaşlığı, hər şeydən əvvəl, əlverişli resurs təminatı hesabına təhsil müəssisələri və qeyri-kommersiya təşkilatları ilə müqavilə münasibətlərin qurulmasını nəzərdə tutur.

LDU-nun strateji inkişaf planının reallaşması baxımından şəbəkə əməkdaşlığı aşağıdakı müxtəlif səpkili birgə tədbirlərin keçirilməsini özündə birləşdirir:

- mühazirə, treyninq, məqsədli tədbirlər və s. təşkilini;
- təhsil və elmi layihələrin reallaşdırılmasını;
- təhsil fəaliyyəti və dövrü nəşr sahəsində birgə metodiki və praktiki tövsiyyələrin işlənib hazırlanmasını;
- təhsil texnologiyaları və təlim metodikasının mübadiləsini;
- təhsil alanların təcrübə mübadiləsi üçün təcrübə keçmə və praktikanın təşkilini;
- forum, konfrans, "beyin hücumları", vebinarlar və s. keçirilməsini.

Lənkəran-Astara iqtisadi regionunun əsrarəngiz mənzərəsini nəzərə alaraq təhsil xidmətləri bazarında LDU-nun müsbət imicini formalaşdırmaq və universitetin təhsil proqramlarını populyarlaşdırmaq məqsədi ilə universitetin bazasında azərbaycanın ümumprofilli

ali məktəb tələbələri üçün ümumrespublika yay "İqtisadçılar məktəbi", "Aqrar mühəndislik məktəbi", "Kimyaçılar məktəbi" və s. açılması təklif olunur. Mühazirə və praktiki treyninqlərin keçirilməsini, daha böyük mənada təhsil proqramlarının təhsil xidmətləri bazarına irəlilədilməsini nəzərdə tutan yay məktəbi LDU-nun professor-müəllim heyəti, müvafiq istiqamətlər üzrə aparıcı təşkilatların ekspertləri üçün diskusiya meydançası olmalıdır.

LDU strateji vəzifə kimi qarşısına universitetlərarası şəbəkə əsaslı qarşılıqlı fəaliyyət Assosiasiyasının yaradılması təşəbbüsünü irəli sürür. Assosiasiya sahə və regional inkişafı təmin edən əsas istiqamətlər üzrə resursları inteqrasiya etmək üçün ölkə universitetlərini peşəkar cəmiyyətə çevirmək missiyasını yerinə yetirməlidir. Regionda ali təhsilin innovativ inkişafına əsaslı formada təsir edəcək belə bir assosiasiyanın əsas vəzifəsi həm regional, həm də respublika səviyyəli ali təhsil müəssisələrinin təhsil fəaliyyəti sahəsində əldə etdikləri nəzəri bilik və praktik təcrübələri mübadilə etmək, ötürməkdən ibarətdir. Bununla əlaqədar olaraq Assosiasiya çərçivəsində tərəfdaş universitetlərlə kommunikasiya sistemlərinin formalaşdırılması, eləcə də tədris prosesinin təşkilində qabaqcıl metodikaların tətbiqi, tədris-metodiki komplekslərin işlənib hazırlanması, elmi-tədqiqat işlərinin yerinə yetirilməsi tələb olunur.

**Gözləninlən nəticələr:**

- tələbə kontingentinin 20 - 25% artması;
- təhsil proqramlarının peşə standartlarının tələblərinə 100% adaptasiya olunması;
- cari, aralıq və yekun attestasiyaların 100% vahid qiymətləndirmə materialları formatında aparılması;
- sosial tərəfdaşları cəlb etməklə tələbələrin universitetdaxili sertifikasiya prosedurundan 100% keçməsi;
- təhsil proqramlarının 20%-nin sertifikasiyalaşdırılmasının xarici steykholderlər tərəfindən icra edilməsi;
- məqsədli təhsil haqqında müqavilə bağlayan tələbələrin sayının təqribən 3-3.5 dəfə artması;
- elmi-tədqiqat layihələrinin 30%-nin müəssisə və təşkilatların sifarişləri əsasında yerinə yetirilməsi;
- akademik mobillik proqramında iştirak edən müəllimlərin sayının 1,5-2 dəfəyə qədər artırılması;
- keyfiyyətli təhsil və elmi - tədqiqat, eləcə də təlim-tərbiyə işləri üzrə fəaliyyəti təmin edən təhsil infastrukturunun modernləşdirilməsi.

## 3. ELMİ – TƏDQİQAT VƏ İNNOVASİYA FƏALİYYƏTİ

### *3.1. Tədqiqat universitet modelinin formalaşmasının məqsəd, vəzifə və prinsipləri*

2030-cu ilə qədər LDU-nun elm-tədqiqat və innovasiya fəaliyyətinin inkişafı tədqiqat universitet modelinin formalaşması və reallaşmasına əsaslanır. Mahiyyət etibarı ilə tədqiqat universiteti modeli təhsil və elmi-tədqiqat fəaliyyətinin effektiv vəhdəti, inteqrasiyasından ibarətdir. Bu əsasda elmi tədqiqatlar professor - müəllim heyətinin fəaliyyətinin ayrılmaz tərkib hissəsi deyil, eyni zamanda vahid sosial-iqtisadi sistem kimi universitetin fundamental əsasını təşkil edir. Tədqiqat universiteti modelində təhsil prosesi fundamental və tətbiqi elmi tədqiqatların, eləcə də innovativ texnologiyaların inteqrasiyası əsasında bilavasitə elmi, maliyyə-iqtisadi və istehsal fəaliyyəti ilə müşahidə edilir. Elm və praktiki fəaliyyətin nəticələrinin bilavasitə tədris prosesinə tətbiqi təhsil alanların elmi-tədqiqat işlərinə cəlb edilməsi, elmin imicinin və populyarlığının yüksəldilməsinə kömək edir və aşağıdakı strateji məqsəd və vəzifələri hədəfləyir:

**Strateji məqsəd:**

- universitetin elmi potensialından mütəxəssis hazırlığının keyfiyyətini yüksəltmək üçün maksimum istifadə edilməsi;
- universitetin elmi fəaliyyətinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi;
- universitet alimlərinin respublika və dünya elm cəmiyyəti ilə inteqrasiyasına nail olunması;
- universitetin elmi fəaliyyətinin respublikanın və Lənkəran - Astara iqtisadi rayonunun innovativ inkişaf amilinə çevrilməsi;
- universitet tədqiqatlarının özünüödəməsinin təmin edilməsi, əməkdaşların rifah halının yüksəldilməsi və universitetin maddi - texniki bazasnın inkişaf etdirilməsi.

**Strateji vəzifə:**

- mütəxəssis hazırlığının bütün mərhələlərində elmi-tədqiqat işlərinin yerinə yetirilməsi ilə tədris prinsiplərinin reallaşdırılması;
- universitetdə yeni elmi məktəbin formalaşdırılması, onların maddi - texniki bazasının möhkəmləndirilməsi;
- universitetin yeni yaradılacaq elmi məktəblərində fundamental elmi tədqiqatların inkişaf etdirilməsi;
- Azərbaycan Milli Elmlər Akademiyası, ölkə və xarici elmi mərkəzlərlə yaradıcılıq əlaqələrinin və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi;
- beynəlxalq, regional və ölkə səviyyəsində innovativ - elmi proqramlar və layihələrin reallaşmasında aktiv iştirak edilməsi;
- elm və texnologiyaların prioritet inkişaf istiqamətləri üzrə tətbiq xarakterli elmi tədqiqatların spektrinin genişləndirilməsi;
- mühəndis və informasiya - kommunikasiya texnologiyaları sahəsində aparıcı mövqeyə nail olunması;
- professor-müəllim heyətinin, tələbə və magistrantların, dissertant və doktorantların elmi tədqiqatlara cəlb edilməsi ilə onları tədqiqat işləri aparmağa həvəsləndirən mexanizmin təkmilləşdirilməsi;

- universitetdə yüksək səviyyəli kadr hazırlığının istiqamətlərinin genişləndirilməsi, müxtəlif istiqamətlər üzrə dissertant və doktorantların sayının artırılması, onların elmi yaradıcılıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi;

- elmi tədqiqatlara monitorinqin təşkili və nəticələrin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi; elmi-tədqiqat və konstruktor işləmələri üzrə məlumatlar bazasının yaradılması, məlumatlar bazasının əlyetərliyinin təmin edilməsi, elektron sənəd dövriyyəsinin formalaşdırılması;

- universitetin elmi kollektivinin və bölmələrinin strukturunun optimallaşdırılması;

- müasir avadanlıq, alət və proqram vasitələri ilə elmi tədqiqatların təmin edilməsi;

- universitetdə elmi tədqiqatların yerinə yetirilməsinin sürətləndirilməsi və inkişaf etdirilməsi məqsədi ilə bütün səviyyələrdə büdcə və büdcədənkənar vəsaitlərin, müəssisə və xüsusi səhmdarların vəsaitlərinin cəlb edilməsi üzrə fəaliyyətin aktivləşdirilməsi;

- əksər elmi tədqiqatların nəticələrini əmtəəlik məhsul kimi kommersiyalaşdırılması;

- intellektual mülkiyyət hüququnun qorunması və informasiya təhlükəsizliyinin təmin edilməsi mexanizminin inkişaf etdirilməsi;

- intellektual mülkiyyətin kommersiyalaşdırılması, kommersiya menecmenti ilə bağlı alimlərə, tələbə və aspirantlara təlimlərin təşkil edilməsi;

- universitetin innovativ infarstrukturunun (biznes inkubator, elmi-texnoloji park, texnologiyaların transfer mərkəzi, gənc sahibkarların inkişaf tədris mərkəzi, treyninq mərkəzi və s.) inkişaf etdirilməsi və onun regionun və bütövlükdə respublikanın iqtisadi və elmi məkanı ilə inteqrasiyasına nail olunması;

- tələbələri innovativ fəaliyyəti üçün müvafiq infrastrukturu yaratmaq və s.

***LDU - nun elmi-tədqiqat və innovasiya fəaliyyəti aşağıdakı prinsiplərə əsaslanır:***

- praktikayönümlü tədqiqatların və ekspert - analitik işlərin prioritet inkişafı;

- aktual elmi tədqiqatların aparılması, hakimiyyət orqanları və biznes subyektlərinin sifarişləri əsasında layihələrin yerinə yetirilməsi istiqamətində elmi-pedoqoji məktəbin formalaşdırılması və inkişafı;

- tələbə, magistrant, doktorant və dissertantların, eləcə də peşəkar təhsil proqramları ilə təhsil alanların elmi - tədqiqat işlərinə cəlb edilməsi;

- elm, biznes və təhsilin inteqrasiyası və bu əsasda büdcədənkənar maliyyə mənbələri hesabına yerinə yetirilən ETİ-nin həcminin artırılması.

Univesitetin elmi-tədqiqat işlərinin tematikası respublikanın və regionun cari və perspektiv tələbinə istiqamətlənmişdir.

***Universitetin elmi fəaliyyətinin əsas məqsədi:***

- Lənkəran–Astara iqtisadi rayonunun inkişafına töhfə verə bilən elmi tədqiqatlar və innovativ işləmələrin inkişaf etdirilməsi, nəticələrin məhsuldarlığının yüksəldilməsi,

- daxili və xarici investisiyaların cəlb edilməsi və effektiv istifadəsi hesabına elmi və kadr potensiyalının inkişaf etdirilməsi;

- regional iqtisadiyatın ayrı-ayrı sahələrində, təbiətdən rasional istifadə sferasında innovatov və elmtutumlu texnologiyaların işlənib hazırlanması və reallaşdırılması;

- təhsil-elm-istehsal üçbucağının inteqrasiyasına nail olunması və bu əsasda elmtutumlu texnologiyalardan istifadə imkanlarının genişləndirilməsi, təhsil və elm-texniki sferada təhsilin innovativ tsikliliyinin inkişaf etdirilməsi;

- elm, texnika və texnologiyanın prioritet sahələrində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, elmi-texniki əməkdaşlıq haqqında müqavilə çərçivəsində fundamental

tədqiqatların, həmçinin müxtəlif istiqamətlər üzrə birgə elmi tədqiqatların spektrinin genişləndirilməsi;

- mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsi üçün universitetin elmi potensiyalından maksimum istifadə edilməsi;

- professor-müəllim heyətinin, tələbə və magistrlərin innovasiya proseslərinə cəlb edilməsi, onların həyat səviyyəsinin yüksəldilməsinə istiqmətlənmiş siyasətin həyata keçirilməsindən ibarətdir.

LDU-nun müasir elmi potensialı nəzərə alınmaqla 11 proritet tədqiqat istiqamətləri təsdiq edilmişdir.

### *3.2. Elmi - tədqiqat və innovasiya fəaliyyətinin prioritet istiqamətləri*

**Universitetin elmi - tədqiqiat və innovasiya fəaliyyəti aşağıdakı məsələlərin həll edilməsinə istiqamətlənir**:

- tələbələri konkret peşəkar fəaliyyət kompetensiyalarına uyğun tədqiqat qrupları tərəfindən aparılan və laboratoriyalarda yerinə yetirilən işlərə cəlb etməklə bakalavr və magistr proqramlarının mənimsənilməsi;
- universitetdə aparıcı elmi məktəbin yaradılması və inkişaf etdirilməsi;
- yüksək elmi nəticələrə nail olmaq üçün büdcə və büdcədənkənar maliyyə vəsitlərinin cəlb və istifadə mexanizminin təkmilləşdirilməsi;
- elmi - tədqiqatların maddi - texniki bazasının inkişaf etdirilməsi;
- dissertant və doktorantlara elmi rəhbərliyin məhsuldarlığının artırılması;
- müasir innovativ iqtisadiyyatın və prioritet elmi istiqamətlərin vəzifələrinə uyğun dissertant və doktorantura üzrə ixtisasların spektrinin genişləndirilməsi;
- dissertant və doktorant hazırlığının büdcədənkənar formasının inkişaf etdirilməsi;
- beynəlxalq elmi proqramlarda, təcrübələrdə və mütəxəssis mübadiləsində iştirak etməklə xarici ölkələrin qabaqcıl elmi təcrübəsinin mənimsənilməsi;
- yüksək elmi nəticələrin əldə edilməsi məqsədi ilə professor-müəllim heyəti, tələbə və magistrantlar üçün real həvəsləndirmə sisteminin formalaşdırılması;
- universitetin perspektiv dövr üçün innovasiya infrastrukturunun inkişaf etdirilməsi;
- univeristetə mənsub intellektual mülkiyyət obyektlərinin bazara irəlilədilməsi və tətbiqi ilə əlaqədar olan innovasiya fəaliyyətinin inkişaf etdirilməsi;
- univeristetin professor-müəllim heyəti, tələbələr, magistrantlar və müvafiq struktur bölmələri tərəfindən aparılan tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırlması ilə əlaqədar fəaliyyətin hərtərəfli müdafiə edilməsi;
- iqtisadiyyatın prioritet sahələrinin maraqları naminə universitetdə tətbiqi tədqiqat xarakterli işlərin həcminin artırılması və tətbiqi tədqiqatlar bazasının genişləndirilməsi;
- birgə təhsil proqramlarının təşkili, təhsil prosesinə biznes subyektlərinin aparıcı mütəxəssislərinin cəlb edilməsi, onların maddi - texniki potensiyalından və resurslarından istifadə ilə bağlı iqtisadiyyatın real sektoruna mənsub subyektlərlə əməkdaşlığın inkişaf etdirilməsi;
- tələbə və magistrantların təhsil prosesində əldə etdikləri fundamental elmi biliklərin praktiki reallaşması üçün onların tətbiqi xarakterli tədqiqatlarda iştirakının aktivləşdirilməsi və s.

### *3.3. Elm - tədqiqat və innovasiya fəaliyyətinin reallaşmasından gözlənilən nəticələr:*

- bütün elmi-pedoqoji kollektivin daha geniş formatda universietin tədqiqat və innovasiya fəaliyyətinə cəlb edilməsi və 2030-cu ilə qədər professor - müəllim heyətinin 60% - dən çoxunun elmi - tədqiqat işlərində aktiv iştirakının təmin edilməsi;

- bir elmi-pedoqoji işçiyə Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilən elmi tədqiqatların orta illik maliyyələşmə həcminə nail olunması;

- yaradılacaq elmi-tədqiqat laboratoriyalarının, mərkəzlərin (məsələn, "Biotexnoloji mərkəz") və kiçik müəssisələrin müasir avadanlıqlarla təmin edilməsi;

- beynəlxalq və respublika səviyyəli elmi layihə və proqramlarda iştirak edilməsi;

- müxtəlif maliyyələşmə mənbələri (məsələn, ABŞ-nın Fulbrayt, Almaniya, Turkiyə, Monqolustan və KXR-nın universitetlərinin akademik mübadilə proqramlarında iştirak etmək) hesabına beynəlxalq elmi - tədqiqat işlərinin həcminin artırılması;

- müxtəlif ixtisaslar üzrə fəlsəfə doktorluğu dissertasiyaların müdafiəsi sahəsində birgə dissertasiya şuralarının formalaşdırılması;

- fəlsəfə doktorluğu üzrə dissertasiya müdafiə edən universitet müəllimlərinin həvəsləndirilməsi;

- LDU-nun alimləri tərəfindən Web of Science və Scopus məlumatlar bazasında indeksləşdirilən resenziyalı beynəlxalq jurnallarda hər 100 müəllimə 10 ədəd hesabı ilə nəşrlərin sayının artırılması;

- reklam və sərgi fəaliyyətinin təmin edilməsi, daimi fəaliyyət göstərən sərgi və interaktiv reyestrlərin universitetin elmi - texniki işləmələri və innovasiyaları ilə təzələnməsi;

- universitetin bazasında elm və texnilkanın prioritet inkişaf istiqamətləri üzrə hər il 10-15 beynəlxalq və ümumrespublika təyinatlı elmi-praktiki konfranslar, seminarlar, dəyirmi masaların təşkil edilməsi;

- xarici tərəfdaşlarla birə nəşrlərin hazırlanması istiqamətində əməkdaşlığın aktivləşdirilməsi;

- gənc alimlərin, dissertantların və tələbələrin qrant müsabiqələrinə cəlb edilməsi, həvəsləndirilməsi üçün təqribən 3500 - 4000 min manat həcmində qrant fondunun yaradılması;

- elmi - tədqiqat işlərində iştirak edəcək tələblərin sayının ümumi tələbə kontingentinin 35 - 40% - i qədər artırılması;

- ali təhsil müəssisələri arasında tələbə biznes - inkubatorlarının yaradılması və onların işinin aktivləşdirilməsi;

- tələbələrin elmi tədbirlərə və maliyyələşdirilən elmi - tədqiqat işlərinə (proqram, təsərrüfat müqavilələri, qrantlar) cəlb edilməsi ilə onların arasında elmi tədqiqatların populyarlaşdırılması;

- gənclərin elmi - texniki yaradıcılığının təbliğ edilməsi, gənc alim və mütəxəssislərin elmi fəaliyyətinin stimulllaşdırılması məqsədi ilə gənc alim və tələbə Şuralarının işinin təkmilləşdirilməsi və peşəkar inkişaf üçün şəraitin yaradılması;

- yaradılan ixtiraların keyfiyyətinin yüksəldilməsi, patent və şəhadətnamələrlə qorunan intellektual mülkiyyət obyektlərindən istifadəni nəzərdə tutan lizensiya müqavilələrinin sayının artırılması və s.

Bu gün Lənkəran-Astara iqtisadi rayonunu ölkə iqtisadiyyatına mədəni, iqtisadi və siyasi təsir edən elmi-tədris mərkəzlərindən birinə çevrilir. Universitet regionun inkişafında drayver rolunu oynamaqla bilik istehsalı, texnologiyaların işlənib hazırlanması və onların kommersiyalaşdırılması istiqamətində əhəmiyyətli dərəcədə intellektual

potensiala malikdir. Bu gün ali tədris ocağının əldə etdiyi nailiyyətlərin səviyyəsi yerinə yetirilən fundamentl tədqiqatların və ***Scopus və Web of Science*** məlumatlar bazasına daxil olan resenziyalaşdırılan beynəlxalq jurnallarda çap edilən məqalələrin sayı ilə qiymətləndirilir. Bu məqsədlə yerinə yetirilən elmi - tədqiqat işlərinin keyfiyyətinin yüksəldilməsi və sayının artırılması üçün universitetdə elmi istiqamətə malik aşağıda qeyd olunan regional klasterlərin yaradılması məqsədəuyğun olardı.

Regional tədqiqat klasterlərinin inkişaf istiqamətləri:

***Məqsəd 1. Elmi işləmələrin səviyyəsinin yüksəldilməsi və dünya elm məkanına inteqrasiyasının təmin edilməsi*** (*cədvəl 1*).

Universitet alimlərinin elmi araşdırmalarının qiymətləndirilməsi üçün elmi istiqamət müəyyənləşdirilməli və keyfiyyəti yüksəldilməlidir.

***Cədvəl 1***

***Elmi işləmələrin səviyyəsini xarakterizə edən göstəricilər***

| **Məqsədli indikatorlar** | **Ölçü vahidi** | **İllər** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | **2022 - 2023** | **2024** | **2025** | **2026** | **2027** | **2028** | **2029** | **2030** |
| **Universitet alimləri-nin Web of Science bazasında nəşr ediləcək məqalələrinin ümumi sayı** | **ədəd** | **55** | **30** | **35** | **40** | **45** | **50** | **55** | **60** |
| **Web of Science bazası üzrə LDU-a verilən istinadların sayı** | **ədəd** | **30** | **20** | **25** | **30** | **35** | **40** | **45** | **50** |
| **Google Scholar baza-sı üzrə LDU-a verilən istinadların sayı** | **ədəd** | **120** | **75** | **85** | **95** | **105** | **115** | **125** | **135** |
| **LDU-da yerinə yeti-rilən Elmi - tədqiqat işlərinin sayı** | **ədəd** | **185** | **105** | **110** | **120** | **130** | **140** | **145** | **150** |

***Birbaşa nəticələrin əldə edilməsi üçün həyata keçirilən tədbirlər:***

1. Ölkədə rəqabət apara biləcək səviyyədə qabaqcıl tədqiqat işləri yerinə yetirən müəllim və əməkdaşları real və effektiv həvəsləndirməyə imkan verən mexanizmin yaradılması.

2. Universitetin professor-müəllim heyəti və tədqiqatçılar üçün ***course buy-out*** siyasətinin tətbiq edilməsi.

3. Tələbə və magistrantlarda tədqiqat işlərinə həvəs yaradan tədbirlərin keçirilməsi: gənc alimlərin müsabiqə, konfrans və ekspedisiyaları, akademik mübadilə və təcrübə keçmələrdə iştirak üçün təqaüdlər, fərdi tədqiqat lahiyələrinin reallaşması üçün qrantların ayrılması.

4. Nüfuzlu elmi ədəbiyyatların nəşrinin elmi fəaliyyətə həsr olunan dövrü mətbuat məlumatları, radio verilişləri, internet resursları ilə təmin edilməsi.

5. Texnoloji inkişaf prioritetlərinin formalaşması və biznes-elm-dövlət vəhdətinə nail olunması məqsədi ilə universitetin bazasında kollektiv istifadə mərkəzi və texnoloji platforma kimi digər maraqlı təşkilatlarla birgə müasir laboratoriyaların yaradılması.

6. Scopus, Web of Science - də indeksləşdirilən impact faktorlu elmi jurnallarda professor - müəllim heyətinin, tələbələrin, magistrantların və doktorantların məqalələrinin nəşr edilməsi ilə bağlı fəaliyyətin aktivləşdirilməsi.

7. Universitetdə sahibkarlıq ekosisteminin yaradılması məqsədi ilə professor - müəllim heyəti üçün təlim kursları, treyninqlərin təşkil edilməsi və keçirilməsi.

8. Regionun iri təsrrüfat subyektləri ilə birlikdə biznes lahiyələrin reallaşdırılması.

9. Biznes nümayəndələri ilə birgə proqramlarda təhsil alanların iştirakının təmin edilməsi.

10. Universitet elmi jurnalının Ali Attestasiya Komissiyasının icazə verdiyi nəşrlər siyahısına daxil edilməsinə nail olunması.

**Gözlənilən nəticələr:**

Planlaşdırılan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakılara nail olmaq mümkündür:

-fundamental və tətbiqi tədqiqatların icrası aktivləşir; elmlə istehsal arasında kooperasiya əlaqələri möhkəmlənir;

- innovasiya sferasında yeni əməkdaşlıq münsibətləri formalaşır;

- müxtəlif təşkilatların iştirakını tələb edən mürəkkəb elmi - texniki layihələrin reallaşması üçün mükəmməl kadr potensialı formalaşır; bütün maraqlı tərəflərin (biznes, elm, dövlət, vətəndaş cəmiyyəti) iştirakı əsasında tədqiqatın və işləmələrin aparılması üçün əlavə maliyyə resursları cəlb edilir;

- universitet alimlərinin elmi məhsullarına tələbat artır; universitet və regionda tələbələrin yüksək səviyyəli sahibkarlıq fəaliyyətinə nail olunur; təhsilalanlar və məzunların potensialı hesabına yaradılan rəqabətqabiliyyətli sahibkarlıq subyektlərinin sayı artır.

***Məqsəd 2. Elmi əsaslarla regionun urbanizasiyası və iqtisadi inkişafı, eləcə də turizm, ekologiya, tikinti, şəhərin rəqəmsallaşdırılması, aqrar sahənin modernləşdirilməsi, əhalinin həyat keyfiyyətinin yüksəldilməsi üçün yaşıl texnologiyaların inkişafı problemlərinin kompleks həlli.***

**Vəzifələr:**

-əlverişli investisiya mühitinin yaradılması üçün gənclər, tələbələr arasında sahibkarlıq mühitinin inkişaf etdirilməsi;

- regional bazar və sosial - iqtisadi infrastrukturun təhlili;

- ev təsərrüfatlarının prioritet inkişaf istiqamətlərinin, eləcə də kənd əhalisinin xüsusi resurslarının iqtisadi proseslərə aktiv cəlb edilməsi metod və formalarının aşkar edilməsi;

- yeni iş yerlərinin yaradılması, turizm, ekologiya, tikinti, şəhərsalma və digər sahələrdə beynəlxalq əməkdaşlıq üçün yeni imkanların yaradılması ilə əlaqədar yaşıl texnologiyadan istifadənin inkişaf etdirilməsi.

**Gözlənilən nəticələr:**

- sahibkarlıq fəaliyyətinin xüsusi seqmenti kimi gənc sahibkarların stimullaşdırılması;

- hazır məhsulların kütləvi istehsalı, milli məhsulların daxili bazarda populyarlaşması və diversifikasiya siyasətinin həyata keçirilməsi;

- uzunmüddətli dövr üçün Lənkəran şəhərinin və bütövlükdə regionun sosial-iqtisadi inkişafının proqnozlaşdırılması, infrastruktur obyektlərinin yerləşdirilməsi və inkişaf sxemi ilə bağlı tövsiyyələrin verilməsi.

**Tədqiqat istiqamətləri**: nəqliyyat logistikası; satış bazarı, tələbə - əmək düşərgəsi formatı əsasında tələbələrin əmək və istirahətə cəlb edilməsi; müasir beynəlxaq münasibətlər, inkişafın inteqrativ-innovasiya vektorları; xidmət və xalq istehlakı mallarına əlyetərliyin təmin edilməsi, ekoloji - iqtisadi və maliyyə aspektləri.

# 4. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ AKADEMİK FƏALİYYƏTİN BEYNƏLMİLƏLLƏŞDİRİLMƏSİ

## *4.1. Beynəlxalq əməkdaşlıq sahəsində sistemli fəaliyyətin strateji məqsəd, vəzifə və əsas istiqamətləri*

LDU-nun 2022-2030-cu illər üçün beynəlxalq əməkdaşlıq və akademik fəaliyyətin beynəlmiləlləşdirilməsi ilə bağlı inkişafı beynəlxalq akademik və peşəkar əməkdaşlıq, beynəlxalq təhsil xidmətləri bazarında aktiv iştirak, beynəlxalq simpozium və konfransların təşkili, eləcə də universitet əməkdaşlarının yüksək reytinqli beynəlxalq tədbir və konfranslarda iştirakının təmin edilməsi, əcnəbi tələbələrin və müvafiq ixtisaslar üzrə peşəkar kadrların cəlbi, beynəlxalq layihələr və proqramlar üçün kadr təchizatı əsasında iqtisadiyyatın biznes və sahibkarlıq, aqrar və humanitar sahələrdə dünya səviyyəli bilik və kompetensiyaların inteqrasiyası və yayılmasını təmin edən bir elmi - departamenti kimi nəzərdə tutur. Ziddiyətli meyllərlə müşahidə edilən qloballaşma və milli ənənələrin gücləndiyi müasir şəraitdə beynəlxalq əməkdaşlığın effektiv təşkili və koordinasiyası universitetin müvəffəq inkişafı baxımından mühüm prinsipial əhəmiyyət kəsb edir.

Ali təhsil müəssisəsinin beynəlmiləlləşdirmə səviyyəsini xarakterizə edən mühüm göstərici professor-müəllim heyəti və təhsil alanların mobilliyi, tədris proqramları və planlarının inteqrasiyası, təhsil xidmətlərinin keyfiyyətinin dünya standartlarına uyğunluğunu təmin edən regional və beynəlxalq məzun şəbəkəsinin yaradılması hesab olunur. Universitetin beynəlxalq tələblərə uyğun təhsilin keyfiyyətinin yüksəlilməsinə istiqmətlənmiş beynəlxalq əməkdaşlıq proqramlarında iştirakı, beynəlxalq əlaqələrin və işgüzar tərəfdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi onun beynəlxalq fəaliyyətinin məqsədini təşkil edir.

**Strateji məqsəd:**

- iqtisadi, humanitar, pedoqoji, mühəndis, informasiya kommunikasiya texnologiyaları, aqrar və s. sahələrdə universitetin lider kimi qəbul edilən imicinin beynəlxalq arenada möhkəmləndirilməsi;

- universitetin inkişafına təkan verə biləcək xarici kapitalın cəlb edilməsi məqsədi ilə rəqabətqabiliyyətli elmi - texnoloji məhsullar və təhsil texnologiyaları ilə dünya iqtisadi - beynəlxalq əməkdaşlıq birliyinə daxil olması.

**Strateji vəzifələr:**

- beynəlxalq sərgilərdə iştirak, elm, təhsil və metodiki problemlər üzrə internet - konfransların təşkili və qabaqcıl elmi məcmuələrdə çap yolu ilə universitetin təhsil, elm və innovasiya fəaliyyəti sahəsində əldə etdiyi nailiyyətlərin və malik olduği imkanların aktiv təbliğ edilməsi;

- beynəlxalq səpkili proqram və layihələrdə iştirak, eləcə də tələbə, doktorant (post doktorantura proqramları üzrə tədqiqat aparan mütəxəssislər) və müəllimlərin akademik mübadiləsi vasitəsi ilə xarici ölkələrin qabaqcıl təhsil və elm mərkəzləri ilə tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi;

- məsafədən təhsildə multimediya vasitələrinin imkanlarından istifadə etməklə beynəlxalq akademik mübadilənin genişləndirilməsi;

- beynəlxalq yüksək texnologiyalar bazarının və təhsil mühitinin monitorinqinin həyata keçirilməsi, təhsil xidmətlərinin ixracı üçün şəraitin yaradılması və s.

***Beynəlxalq əməkdaşlıq sahəsində sistemli fəaliyyətin əsas istiqamətlərinə:***

- xarici vətəndaşlar, o cümlədən dünyanın müxtəlif regionlarında Azərbaycan Respublikasının geosiyasi və iqtisadi təsirlərini gücləndirmək məqsədi ilə təhsil proqramlarının inkişafı və diversifikasiyası;

- təhsil proqramları üzrə kreditlərin qarşılıqlı tanınması ilə bağlı müvafiq fəaliyyətin intensivləşdirilməsi;

- təhsil və elmi fəaliyyətin kompleks beynəlmiləlliləşdirilməsi hesabına universitetin qlobal və lokal rəqabətqabiliyyətliliyinin yüksəldilməsi;

- coğrafi istiqamətləri genişləndirməklə beynəlxalq təhsil proqramlarının sayını və diversifikasiya imkanlarının artırılması;

- məsafədən təhsil formasında tədris edilən ayrı - ayrı modul və təhsil proqramlarının yaradılması, onların əsas təhsil proqramlarının tələblərinə adaptasiya edilməsi;

- beynəlxalq tələbə layihələrinin, startapların işlənib hazırlanması və nəticələrin kommersiyalaşdırılması üçün əlverişli mühitin formalaşdırılması;

- təhsil alanlar üçün xarici dil səviyyəsini təsdiq edən müvafiq sertifikatların verilməsi;

- keyfiyyətli təhsil proqramlarının beynəlxaq akkreditasiyası təmin edən menecment sisteminin yaradılması;

- yeni təhsil texnologiyalarının aprobasiyası və tətbiqi, dünya səviyyəli bilik, təcrübə və peşəkar vərdişlərə əlçatanlığın təmin edilməsi aid edilir.

***Beynəlxaq səviyyədə əsas praktik fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir*:**

- xarici vətəndaşlara "Azərbaycan dilinin" öyrədilməsi;

- xarici akademik və korporativ tərəfdaşlarla innovativ yönümlü beynəlxalq təhsil proqramlarının yaradılması;

- beynəlmiləlləşdirmə hesabına universitetin rəqabətqabiliyyətinin kompleks şəkildə inkişaf etdirilməsi;

- dünyanın bütün regionlarına əməkdaşlıq üçün açıq olan universitetin beynəlxalq təhsil və elm məkanına nüfuz etməsinin təmin edlməsi.

***LDU-nun beynəlxalq fəaliyyətinin prioritet məsələlərinə daxildir:***

- təhsil və elmi-tədqiqiat proqramlarının inkişaf etdirilməsi və təkmilləşdirilməsi üçün xarici təcrübə və biliklərin əldə edilməsi;

- Azərbaycanın mədəni kodlarının transformasiyası;

- Azərbaycan dilinin tərənnüm edilməsi.

### *4.2. Beynəlxaq təhsil üzrə əməkdaşlıq*

İstedadlı xarici tələbələr, magistrantlar və tədqiqatçılar üçün universitetin cəlbediciliyinin yüksəldilməsi universitet qarşısında duran strateji vəzifə və effektivlik göstəricisi hesab edilir.

***Məqsəd 1. Universitetdən kənar - xarici beynəlmiləlləşdirmə***

Universitetdən kənar beynəlmiləlləşdirmənin əsas vəzifələrinə aiddir:

- xarici akademik mobilliyin inkişafı. Xaricdə təhsil yüksək səviyyəli peşəkar mütəxəssis hazırlığının ayrılmaz tərkib hissəsidir. Məhz buna görə də beynəlxalq akademik mobilliyin inkişaf etdirilməsi beynəlxalq fəaliyyətin mühüm istiqamətlərindən birin təşkil edir**. *Erasmus +, Mevlana, Horizon*** proqramı çərçivəsində xarici universitetlərdə təcrübə keçmək, akademik mobilliyin imkan verdiyi hədd daxilində tələbə və əməkdaşlar arasında müntəzəm seminarlar təşkil etmək, xarici təhsil müəssisələri və tərəfdaşlarla akademik mobillik üzrə müqavilələrin implementasiyası və s. akademik mobilliyin inkişaf etdirilməsinə motivasiya yaradır:

- beynəlxalq təhsil proqramları, elmi layihələrdə və beynəlxaq reytinqlərdə iştirak;
- mühazirə, vebinar və onlayn - konfransların təşkili.

***Məqsəd 2. Universitetdaxili beynəlmiləlləşdirmə***

Universitetin xarici beynəlmiləlləşdirilməsi üzrə əsas vəzifələrinə daxildir:

- təhsil proseslərinə beynəlxalq yanaşma kontekstində yeni bilik və təhsil metodları vasitəsi ilə təhsil alanların kompetensiyasının artırılmasına imkan verən xarici ölkə tələbə və müəllimlərinin cəlb edilməsi;
- xaricdən cəlb edilmiş tələbə, tədqiqçı alimlər və professor – müəllim heyətinin dil biliklərini təkmilləşdirmək və əlçatanlığını təmin etmək məqsədi ilə “Azərbaycan dilində hazırlıq kursları”nın yaradılması;
- elmi tədqiqatların beynəlmiləlləşdirilməsi. Universitetin elmi-tədqiqat işlərinin beynəlmiləlləşdirilməsində mühüm vəziflərdən biri yeni beynəlxalq proqramların axtarılması, universitetin fərdi və xarici tərəfdaşlarla birlikdə elmi-tədqiqat üzrə qrantların alınmasına sifarişlərin hazırlanması və verilməsindən ibarətdir. Bu məqsədlə universitet ***Erasmus + , Mövlana, Horizon*** və s. beynəlxalq layihənin reallaşdırılması ilə əlaqədar aktiv iş aparır.
- universitetdə üç dilli (ingilis, rus və türk) tədris proqramlarının inkişafı;
- dünyanın top-menecer universitetlərindən kadrların dəvət edilməsi.

Beynəlmiləlləşdirmə fəaliyyətinə intensiv istiqamət vermək məqsədi ilə LDU-nun təhsil proqramları üzrə beynəlxalq əlaqələri və tərəfdaşlıq münasibətləri quracağı ali təhsil müəssisələri müəyyənləşdirilməlidir. Prioritet istiqamətlər üzrə (turizm, texnologiya, logistika, menecment, marketinq, humanitar elmlər, aqrar sahə və s.) xarici strateji tərəfdaşların seçilməsinə obyektiv zəruriyyət yaranır. Universitet aşağıdakı assosiasiyalara üzv olunmasını hədəfləyir:

- Avropa ali təhsil müəssisələri assosiasiyası;
- Azərbaycan Respublikasının ali təhsil müəssisələri assosiasiyası;
- Azərbaycan rektorlar assosiasiyası;
- İpək Yolu Ölkələri/Universitetləri və Konsaltinq Şirkətlər Assosiasiyası (Association of Silk Road Countries/Universities and Consulting Companies).

### *4.3. Beynəlxalq əlaqələrin infrastrukturunun təkmilləşdirilməsi*

Təhsil proqramlarının inkişafı və beynəlxalq istiqaməti struktur, təşkilatı və digər sistemli dəyişikliklərin həyata keçirilməsini tələb edir. Bu baxımdan innovativ təhsil proqramlarının işlənib hazırlanması və pilot aprobasiyası beynəlxalq təhsil klasterinin (BTK) yaradılmasını nəzərdə tutur. BTK - açıq beynəlxaq sahibkarlıq institut olmaqla yüksək səviyyəli akademik təhsil və elmi əməkdaşlıq üzrə Azərbaycan və xarici ölkələrin təcrübə mübadiləsinin inteqratoru, innovativ ideyaların generatoru, pilot layihələrin aprobasiyası üçün meydan hesab edilir.

**Nəticələrin əldə edilməsinə yönəlik tədbirlər:**

1. Beynəlxalq akademik və elmi qrantların alınması məqsədi ilə xarici universitetlərin axtarılması və seçilməsində universitet tələbələri və əməkdaşlarına məsləhət xidmətinin göstərilməsi;
2. Alimlərin və təhsil alanların akademik mübadilə sahəsində xarici təhsil müəssisələri ilə əməkdaşlığının inkişaf etdirilməsi;
3. Akademik mobilliyin informasiya təminatının yüksəldilməsi, keyfiyyətli xarici (daxili) mobilliyin təmin edilməsi;
4. LDU-nun xarici ölkələrin təhsil müəssisləri - tərəfdaşlarla birbaşa əlaqələrinin genişləndirilməsi, universitetə xarici müəllimlərinin, tədqiqatçıların və tələbələrin gəlişinin təmin edilməsi;
5. LDU-nun elm və təhsil fəaliyyətində iştirak edəcək xarici mütəxəssislərin və alimlərin sayının artırılması.

**Gözlənilən nəticələr:**

- xarici ölkə universitetləri ilə ikili diplom üzrə təhsil proqramlarının reallaşdırılması;
- akademik mobil proqramlar üzrə təhsil alanların sayının atırılması;
- professor-müəllim heyəti və əməkdaşların beynəlxalq təkmilləşdirmə səviyyəsinin yüksəldilməsi;
- dünya təhsil məkanına inteqrasiya mexanizminin inkişaf etdirilməsi.

# 5. KOMMUNİKASİYA VƏ REPUTASİYANIN İDARƏ EDİLMƏSİ

## *5.1. Kommunikasiya universitet imicinin yaradılması vasitəsi kimi*

Ali təhsil ocağının pozitiv imici cəmiyyətin müxtəlif qrupları ilə korporativ kommunikasiya prosesi zamanı yaranır. Kommunikasiya strategiyası universitetin obrazının yaradılması, eləcə də marketinq, reklam, PR - kommunikasiyası, korporativ identifikasiya, yarmarka və sərgilər sistemini, xeyriyyə işlərini özündə ehtiva edən konkret xassələrə malik təhsil xidmətləri bazarı üçün məhsul yaratmaqdan ibarətdir.

Azərbaycan Respublikasının yeni tip cəmiyyətə - informasiya cəmiyyətinə keçidinin xarakterik cəhəti ali təhsilli mütəxəssislərin peşəkar hazırlıq səviyyəsinə tələblərin artması, ali təhsil müəssisələrində innnovativ texnologiyaların inkişafına şərait yaradan islahatların həyata keçirilməsi, keyfiyyətli tədrisin təmin edilməsi, istənilən fəaliyyət sahəsi üçün rəqabətqabiliyyətli kadrların hazırlanması zəruriliyi ilə müşaiyyət olunan şərtlərlə qarşılaşır.

Müasir cəmiyyət kommunikativ məkanın zənginliyi ilə fərqləndiyi kimi müasir informasiya cəmiyyətidə informasiyaların ötürülməsini reallaşdıran kanallarının inkişafı ilə səciyyələnir.

## *5.2. Marketinq kommunikasiyası sistemi*

Marketinq kommunikasiyası universitetlə tələbələr, onların valideynləri, universitetlə ötən illərin məzunları, onların iş yerləri arasında qurulan sistematik münasibətlər kimi müəyyən edilir. Universitetin marketinq kommunikasiya sistemi özündə aşağıdakı istiqamətləri ehtiva edir:

- bir neçə müasir kommunikasiya vasitələrindən istifadə etməklə tələbələr, onların valideynləri ilə birbaşa marketiq - interaktiv marketinq sistemini;

- hər bir fakültədə nümunəvi davranışına və tədris prosesində əldə etdiyi nailiyyətlərə görə seçilən tələbələrin valideynlərinə müxtəlif xarakterli (təşəkkürnamə, universitet tədbirlərinə dəvətnamələr və s.) poçt göndərmələrini;

- tələbə - məzunlarla birbaşa əlaqələrin qurulmasını.

Marketinqin kommunikasiya sistemi regional təhsil müəssisələrinin abituriyentləri üçün universitetin cəlbediciliyinin yüksəldilməsi və təhsil alanlarda motivasiya yaradan aktiv marketinq aləti hesab edilir. Marketinq kommunikasiyası universitetin mahiyyətini ifadə etdiyindən kommunikasiya əlaqələrin qurulması zamanı əsas diqqət kommersiya xarakterli təkliflərin dəqiq və pozitiv verballaşdırılmasına yönəldilir. Nəticədə dəqiq məlumatlara malik olan məqsəd auditoriyası (abituriyentlər, onların valideynləri, tələbələr, subbakalavrlar) universitetin yaradığı məhsul, onun müsbət imici haqqında əldə etdiyi hər tərəfli biliklər əsasında mülahizələr aparmaq imkanı qazanır.

### *5.3. Reklam, ictimayyətlə əlaqə və sərgilər*

Reklam kommunikasiyası - konkret məqsəd auditoriyasına ünvanlanan, reklam edilən obyektə (universitetə) diqqətin yönəldilməsinə istiqamətlənən, ona yüksək maraq formalaşdıran və universitetin təklif etdiyi təhsil xidmətlərini bazara irəlilədən, müxtəlif üsul və formada yayılan informasiyadır. Reklam kommunikasiyası aşağıdakılardan ibarətdir:

- mətbuat, radio və televiziya kimi kütləvi informasiya vasitələrində reklam;
- İnternet - reklam (Web) + sayt kommunikativ element kimi;
- E - mail reklam (məlumatı alanın razılığı və ya xəbəri olmadan elektron poçt kanalları vasitəsi ilə ötürülən reklam);
- mobil kontent + SMS (mobil kontent formasında və ya SMS məlumatlarının köməkliyi ilə ötürülən reklamlar);
- yerində reklam ( təhsil xidmətləri haqqında reklam-informasiya məlumatları toplusu).

İqtisadi nöqteyi - nəzərdən reklam marketinqin mühüm kompanentlərindən biri hesab edilir və imic - kommunikativ strategiya konteksində reklam kommunikasiyası universitetin, onun təhsil xidmətləri bazarına təklif etdiyi məhsulların obrazının yaradılması istiqaməti kimi müəyyənləşdirilir. Bununla əlaqədar olaraq reklam özündə rasional praqmativ və irrasional - emosiyonal informasiyaları akkumulyasiya etdiyindən o, tədris müəssisəsində reklam məlumatlarının müxtəlifliyini təyin edir.

***İctimayyətlə əlaqə*** (rublic relations, PR) universitetin (kommunikatorun) qarşıya qoyduğu məqsədlərə nail olmaq baxımından məqsəd auditoriyasını (abituryentlər, onların valideynləri, tələbələr, subbakalavrlar) tam və obyektiv məlumatlandırma əsasında onunla ahəngdar kommunikasiyanın formalaşdırılması sistemidir. İctimaiyyətlə əlaqə sistemi aşağıdakıları özündə ehtiva edir:

- kütləvi informasiya vasitələrini (*media relations*);
- kontakt və məqsəd auditoriyasını;
- hakimyyət orqanlarını (*government relations*);
- korporativdaxili kommunikasiya münasibətlərini.

İctimaiyyətlə əlaqə sosiumda universitetin təhsil xidmətləri bazarına təklif etdiyi məhsulların obrazını (reputasiyanın yaradılması, təhsil xidmətləri bazarında mövqe, rəhbərliyin obrazının yaradılması, ali təhsil ocağının ictimai və sosial xarakteristikasının ifadə edilməsi) formalaşdırmaqdan ibarətdir. LDU-nun fəaliyyəti üçün reputasiyanın (real işlər haqqında məlumatlat toplusu) yaradılması aktual məsələ hesab edilir. Çünki, reputasiya təhsil müəssisələri üçün dəyər yaradan aktiv, kommunikasiya isə tədris prosesinə cəlb edilən professor - müəllim heyətinin intellektual kapitalına, tələbənin dəyərinə təsir edən, universitetin təklif etdiyi təhsil xidmətlərinin cəlbediciliyini artıran investisiya hesab olunur. Yaxşı (müsbət) və və pis (mənfi) elementləri özündə birləşdirən reputasiyada hər şeydən əvvəl, davranış və fəaliyyət zamanı normativ etik dəyərlər ön plana keçir. Məhz yaxşı (müsbət) reputasiya LDU-ya neqativ informasiya axınlarına müqavimət göstərməyə və təhsil xidmətləri bazarında onun dayanıqlığını yüksəltməyə kömək edir.

***Sərgilər***. Perspektiv dövrdə təhsil məhsulları bazarında tərəqqiyə nail olmaq məqsədi ilə tələbatı ödəyə biləcək xidmətlərin nümayiş etdirilməsi vasitəsi hesab edilən sərgi fəaliyyəti bütün ali təhsil müəssisələrində olduğu kimi LDU və onun məhsulunun reklam vasitəsi hesab edilir. Sərgilərin təşkilinin ali məqsədi LDU və onun təhsil xidmətlərin bazarına təklifləri haqqında minimum zaman kəsiyində maksimum informasiya ötürməkdən ibarətdir.

# 6. SOSİAL VƏ TƏRBİYƏ İŞLƏRİ

## *6.1. Təhsil alanlarda kreativ  və sosial kapitalın inkişafı*

“2022 - 2030-cu illlər ərzində sosial və təlim - tərbiyə işlərinin inkişaf etdirilməsi tələbə gənclərdə sosial və kreativ kapitalın formalaşdırılması, sosial xarakterli və sahibkarlıq təşəbbüslərinin müdafiə edilməsinə yönəlik kompleks tədbirlərin işlənib hazırlanmasını nəzərdə tutur. LDU-nun mühüm funksiyalarından biri yüksək şəxsi keyfiyyətlərə malik tələbə kontingentinin formalaşdırılmasına imkan yaratmaqdan, hər bir təhsil alanın potensialını hərtərəfli aşkar etmək üçün tələb olunan zəruri şəraiti yaratmaqdan ibarətdir. Bununla əlaqədar olaraq həyata keçirilən işlər təhsil prosesləri ilə sıx interqasiya əlaqələrinə, xüsusi ilə tələbə gənclərdə təhsildənkənar praktik vərdişlər və kommunikasiya qabiliyyətinin formalaşmasına, həmçinin, Azərbaycan Respublikasının gənclər siyasətinin bir sıra baza prinsiplərinə (patriotizm, sağlam həyat tərzi, bədən tərbiyəsi, yaradıcı fəaliyyət və s.) əsaslanmalıdır. Qeyd edilən istiqamətlər üzrə işlər səmərəli formada bütün səviyyələrdə (professor-müəllim heyəti, müvafiq struktur bölmələrin rəhbərləri, tələbə özünüidarəetmə - özünütərbiyə sistemi çərçivəsində) həyata keçirilməlidir.

**Strateji məqsəd:**

- Universitet gənclərinin həyatda qarşılarına qoyduqları məqsədlərinin dərk edilməsi, onlara nail olunması üçün motivasiya formalaşdırılmasına yönəlik şəxsiyyətin ahəngdar inkişafına imkan verən əlverişli şəraitin yaradılması;
- Universitet kollektivinin və tələbələrin sosial - mədəni mühitə effektiv adaptasiyasına imkan verən əlverişli şəraitin yaradılması məqsədi ilə sosial və tərbiyə işlərinin təkmilləşdirilməsi.

**Strateji vəzifələr:**

- tələbələrin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onlarda bəşəri və milli mədəni dəyərlərə, dayanıqlı ülvi prinsip və normalara münasibətlər sisteminin formalaşdırılması;
- aktiv həyat tərzinin möhkəmləndirilməsi;
- sosial və tərbiyə işlərinin aktivləşdirilməsi üçün tələbələr arasında fiziki mədəniyyətin inkişaf etdirilməsi;
- inkişaf planı qarşısında duran vəzifə və öhdəliklərə uyğun sosial və tərbiyə işləri üzrə sistemin təkmilləşdirilməsi;
- tədrisdənkənar və tərbiyə fəaliyyətində kreativ və sosial kapitalın inkişaf etdirilməsi üzrə inftastrukturun formalaşdırılması;
- tərəfdaşlıq münasibətləri sisteminin inkişaf etdirmsi ilə universitetin regional və respublika səviyyəsində imicinin yüksəldilməsi;
- gənclər təşkilatları vasitəsi ilə liderlik keyfiyyətlərinin inkişaf etdirilməsi üçün tələbə özünüidarəetmə sisteminin təkmilləşdirilməsi, tələbə birliklərinin inteqrasiyasına nail olunması, sosial xarakterli tələbə təşəbbüslərinin inkişaf etdirilməsi;
- tələbələrin hüquqi və sosial müdafiəsinin təşkili, universitetdə hərtərəfli tərbiyə mühitinin formalaşdırılması  üçün psixoloji məsləhət xidmətinin yaradılması;

- humanitar pedoqoji mühitin formalaşdırılması və gənclərdə tolerantlığın inkişafına imkan verən şəraitin yaradılması, hüquqi, siyasi və etik mədəniyyətin aşılanması;

- universitetdə təlim-tərbiyə mühitinə sistematiq monitorinqin təşkili.

2020-2030-cu illər ərzində LDU-nun sosial və tərbiyə işləri ilə bağlı fəaliyyəti cəmiyyət və dövlətin tələbləri nəzərə alınmaqla aşağıdakı prinsiplərə əsaslanması təkilf edilir:

- tərbiyə proseslərin formalaşdıran bütün komponentlərin birgəliyi, başqa sözlə, bütövlülük, qarşılıqlı əlaqə və özünütərbiyə sistemləri vasitəsi ilə şəxsiyyətə hərtərəfli təsir;

- şəxsiyyətə hörmət və hər bir tələbəyə, magistranta, doktorant və əməkdaşlara fərdi yanaşma;

- fərdin müsbət tərbiyəsi ilə nəticələnən humanizm.

### *6.2. Sosial və tələbə işləri üzrə sistemin təkmilləşdirilməsi*

Tələbə gənclərlə işlərin təşkilinə yanaşmaların sürətlə dəyişməsi universitet qarşısında tərbiyə işlərinin metodologiyasının yeniləşməsi vəzifəsini qoyur. Perspektiv dövrdə müasir çağrışlar nəzərə alınmaqla LDU-nun tərbiyə işləri üzrə lokal xarakterli normativ aktlar və metodiki materialların təkmilləşdirilməsinə ehtiyac duyulur. Bu universitetdə təlim - tərbiyə işlərinin effektiv qurulması ilə yanaşı, eyni zamanda respublikanın aparıcı üniversitetləri tərəfindən toplanmış təcrübənin bölüşdürülməsinə də imkan verər.

Universitetdə sosial mühitin yaxşılaşdırılması təkcə tələbə gənclərinin hərtərəfli inkişafı üçün əlverişli şəraitin yaradılmasını deyil, eyni zamanda mənəvi dəyərlərin (qarşılıqlı kömək, humanizm, həssaslıq, səmimiyyət və s.) kompleks şəkildə inkişafı, aktiv həyat mövqeyinin, kommunikativ vərdişlərin və vətəndaş tərbiyəsinin formalaşması üzrə fəaliyyətin təmin edilməsini nəzərdə tutur. LDU-nun tələbə gənclərinin həyat trayektoriyasının əsasını müasir vətəndaş cəmiyyətinin çağrışlarını qəbul edə bilməsi, ona hazır olması təşkil etməlidir. Universitetdə formalaşan multikultural mühit effektiv mədəniyyətlərarası kommunikasıya, tolerantlığın formalaşması, bütün təhsil alanların və əməkdaşların səmərəli kommunikasiyası, bir - birinə hörmət və ehtiram göstərmələri üçün şəraitin yaradılmasını tələb edir. Universitetin steykholderlərindən biri tələbə cəmiyyətləri hesab edilir. Tələbə gənclər təşkilatının məqsədi LDU-da təhsilin inkişafına kömək göstərmək, ölkənin ictimai həyatında gənclərin iştirakı tələbələrin maraqlarını təmsil və müdafiə etmək, respublikanın ictimai-siyasi, mədəni, sosial-iqtisadi həyatında onların fəal iştirakını təmin etməkdən ibarətdir. Bu məqsədlərə nail olmaq üçün tələbə gənclər təşkilatı aşağıdakl istiqamətlərdə fəaliyyət göstərməlidir:

- tələbələrin təhsilə və elmi-tədqiqat işlərinə həvəsləndirilmələri üçün elmi konfranslar, müsabiqələr, olimpiadalar, elmi - əyləncəli oyunlar, seminarlar, dəyirmi masalar, təlim kurslarının təşkili;

- universitetin ictimai həyatında tələbə gənclərin fəallığının artırılması;

- tələbələrin hüquqlarının müdafiə edilməsi;

- tələbə gənclər arasında ümumbəşəri dəyərləri təbliği, vətəndaş cəmiyyətinin inkişafında onların rolunun artırılmasına nail olunması;

- tələbə gənclərdə vətənpərvərlik və milli - mənəvi dəyərlərə bağlılıq ruhunun üçün tədbirlərin həyata keçirilməsi;

- tələbələrin asudə vaxtının səmərəli təşkilinə nail olmaq məqsədilə mədəni - kütləvi tədbirlərin təşkili;

- tələbə gənclər arasında pis vərdişlərə qarşı təbliğat işlərinin aparılması, narkomaniya, alkoqolizm, cinayətkarlıq, əxlaqsızlıq və digər neqativ meyllərə qarşı profilaktik tədbirlərin həyata keçirilməsi;

- respublikanın daxilində və xarici ölkələrdə keçirilən müsabiqələrdə, olimpiadalarda, sərgilərdə, festivallarda, idman yarışlarında istedadlı və yaradıcı tələbələrin iştirakının təmin edilməsi.

Bununla əlaqədar olaraq gənclər siyasətinin mühüm tərkib elementlərindən biri tələbələrin universitetdə gedən transformasiya proseslərinə cəlb edilməsindən ibarətdir. Bu zaman hər bir təhsil alan universitetin strateji inkişaf istiqamətləri haqqında konkret təsəvvürlərə malik olmalı, plandan irəli gələn məsələlərin reallaşmasında təşəbbüs göstərməli, nailiyyətlərin əldə ediməsində iştirakçıya çevrilməlidirlər. Əks əlaqə mədəniyyəti formalaşdırılmalı, tələbə onun effektivliyini hiss etməli, duymalıdır.

Qoyulan məsələlər çərçivəsində tərbiyə işlərinə yeni yanaşmaların formalaşdırılması, gənc nəsildə intellektual, kommunikativ, yaradıcılıq, fiziki və adaptiv xüsusiyyətlərin təşəkklü tapmasına diqqətin artırılması tələb edilir. Belə yanaşmalardan biri tələbələrdə liderlik, komanda işi, özünütəşkil və bütövlükdə aktiv həyat tərzinin formalaşmasına imkan verən tələbə birliklərinin fəaliyyət istiqamətlərinin sistemli şəkildə genişləndirilməsi və onun effektivliyinin yüksəldilməsindən ibarətdir.

Universitetdə gənclər siyasətinin mühüm istiqamətlərindən biri könüllülər hərəkatının inkişaf etdirilməsi, təhsil alanların könüllü fəaliyyətlərinə cəlb edilməsindən ibarətdir. Bunun üçün ilk növbədə həm universitet, həm də fakultələr səviyyəsində belə təşəbbüslərin, o cümlədən könüllü xarakterli yeni tələbə birliklərinin (cəmiyyətlərinin) yaradılması və mövcud olanların isə inkişaf etdirilməsi nəzərdə tutulur.

Universitetdə könüllü tələbə birliklərinin əsas diqqətinin regionun mühüm sosial problemlərin, o cümlədən ayrı-ayrı kateqoriyalardan olan vətəndaşlara kömək göstərilməsinə, eləcə də sağlam həyat tərzinin populyarlaşdırılması və sosial xarakterli xəstəliklərin profilaktikası kimi məsələlərin həllinə yönəldilməsi planlaşdırılır.

## 6. İDARƏETMƏ SİSTEMİ VƏ EFFEKTİV MENECMENT

### *7.1. İdarəetmə strukturu*

LDU-nun rəqabət qabiliyyətliliyinin təmin edilməsi onun idarə edilməsinə iqtisadi yanaşma tələb edir. Hal - hazırda idarəetmənin əsas problemi ali təhsil müəssisəsinin idarəetmə strukturunun bazar xarakterli dəyişən sosial-iqtisadi şəraitə adaptasiya olmaması hesab edilir. Bu baxımdan problem məhz özünü idarəetmə prinsipinə söykənən yeni idarəetmə sistemi vasitəsi ilə aradan qaldırıla bilər. Təhsil proqramlarının iqtisadi effektivliyinə görə bütün cavabdehlik məsuliyyəti, eləcə də müvafiq səlahiyyətlər təhsil proqramlarının koordinatoru kimi fakultələr (kafedralar) və şöbələr (Fənn Birləşmə Komissiyaları) üzərinə düşür. Belə struktur yanaşma zamanı LDU-nun bütün aspektlər üzrə aktiv fəaliyyətinin ağırlıq mərkəzini məhz yüksək və orta ierarxiya səviyyələrinin üzvü əlaqələndirilməsi təşkil edir.

Universitetin strateji inkişaf planının idarəetmə sisteminin inkişaf etdirilməsini nəzərdə tutan bölməsinin yerinə yetirilməsi zamanı əsas diqqət real islahatların aparılması üçün əlverişli mühiti təmin edən normativ və inzibati - təşkilatı xarakterli işlərin planlaşdırılması və reallaşdırılmasına yönəldilir. “Sahibkarlıq” universiteti konsepsiyasına uyğun olaraq birinci növbədə diqqət maliyyə təminatı məsələsi hesaba alınmaqla təhsil proqramları və ya elmi-tədqiqatların müvəffəq reallaşmasına yönəldiləcəkdir.

Transformasiya tələb edən təhsil müəssisəsinin idarə edilməsində əsas istiqamətlərə aşağıdakılar daxildir:

1. İnsan resuslarının idarə edilməsi, professor - müəllim heyətinin və əməkdaşların rifah halının yüksəldilməsi.
2. Universitetin maliyyə dayanıqlığı və müstəqilliyi.
3. Biznes proseslərin idarə edilməsi.
4. Steykholderlərlə iş və müştəriyönümlülük sahəsində fəaliyyət.
5. Daxili və xarici kommunikasiya və qərarların qəbulu.

**Strateji məqsədlər:**

- universitet kompleksinə daxil olan subyektlərlə tərəfdaş münasibətlərinin möhkəmləndirilməsi, onların malik olduğu potensial və resursların inteqrasiyası və rasional istifadəsi yolu ilə universitetin missiyasının effektiv reallaşması üçün şəraitin yaradılması;
- regionun intellektual - innovasiya - sənaye mərkəzi kimi universitetin inkişafı ilə bağlı siyasətinin həyata keçirilməsinin təmin edilməsi;
- təhsilalanlar və əməkdaşların peşəkar fəaliyyəti və sosial şəraitinin yaxşılaşdırılması üçün universitetin idarəetmə sisteminin inkişaf etdirilməsi.

**Strateji vəzifələr:**

- universitetin strateji inkişf planının reallaşması ilə bağlı idarəetmənin effektiv təşkili;
- universitetin təşkilatı strukturunu strateji məsələlərin həllinə adaptasiya edilməsi;

- orta və uzunmüddətli planlaşdırma mexanizmi və balanslaşdırılan göstəricilər sistemi vasitəsi ilə universitetin idarə edilməsi sahəsində taktiki həll variantlarının onun strateji inkişaf proqramı ilə üzvü şəkildə əlaqələndirilməsi;

- ISO-9000 beynəlxaq standartının tələblərinə uyğun olaraq keyfiyyətin idarə edilməsi prinsipi əsasında universitetin idarəetmə sisteminin modernləşdirilməsi;

- universitet kompleksinə daxil olan bütün subyekt və innovativ strukturların məlumatlar bazasını və informasiya axınlarını inteqrasiya edən korporativ informasiya sistemləri və infrastruktur şəbəkələrinin inkişaf etdirilməsi;

-müasir proqram və informasiya vasitələrinin tətbiqi hesabına idarəetmə sisteminin funksional imkanlarının genişləndirilməsi;

- avtomatlaşdırılmış korporativ informasiya idarəetmə sistemlərinin və info-kommunikasiya şəbəkəsinin fəaliyyətini təmin edən normativ sənədlərin işlənib hazırlanması;

-resurslara monitorinqin təşkili, faktiki bölüşdürülməsinə nəzarət və onlardan effektiv istifadənin qiymətləndirilməsi əsasında idarəetmə qərarları sisteminin təkmilləşdirilməsi;

- universitetin effektiv idarə edilməsinin təmin edilməsi məqsədi ilə kadr, maliyyə, informasiya və maddi - texniki resurslardan istifadəni tənzimləyən normativ sənədlərin təkmilləşdirilməsi;

- struktur bölmələrinin və ayrı - ayrı işçilərin həvəsləndirici təşəbbüslərinə, eləcə də təhsilalanların və işçilərin yaradıcılıq qabiliyyətlərini və peşəkar imkanlarının maksimum aşkar edilməsinə imkan verən şəraitin yaradılması;

- kollektivdə əməyin nəticələrinə ümumi marağın yaradılması, bütün fəaliyyət sahələrində universitetin maraqlarının təmin edilməsi və qoruması;

- bütün kateqoriyalar üzrə iznibati-idarəetmə heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə imkan verən sistemin formalaşdırılması.

LDU-nun 2022-2030 - cu illər üzrə idarəetmə sisteminin inkişafı universiteti "sahibkarlıq" universiteti kimi xarakterizə edən aşağıdakı ***prinsplər*** əsasında həyata keçirilməsi planlaşdırılır:

- inzibati və akademik bölmələr daxil olmaqla universitetin idarəetmə sisteminin gücləndirilməsi;
- xarici strukturlarla qarşılıqlı fəaliyyətin perspektivli forma və mexanizmlərinin inkişafını təmin edən yeni strukturların yaradılması;
- yeni şəraitdə akademik bölmələrin fəaliyyətinin həvəsləndirilməsi;
- maliyyələşmə mənbələrinin diversifikasiyası;
- inteqrativ sahibkarlıq mədəniyyətinin formalaşdırlması.

Qeyd edilən istiqamətlərə uyğun olaraq təklif edilən Strateji inkişaf planının həyata keçirilməsi üzrə birinci mərhələdə aşağıdakı sistem xarakterli fəaliyyətlərin təşkili və reallaşdırılması planlaşdırılır:

- strateji inkişaf planında göstərilən ayrı-ayrı məsələlərin yerinə yetirilməsinə görə universitet rəhbərliyinin və baza elm-təhsil bölmələrinin fəaliyyət effektivliyinin müntəzəm qiymərtləndirilməsi və monitorinqi;
- elm-təhsil fəaliyyətinin gözlənilən səmərəliliyinin və yeni yaradılan struktur bölmələrinin maliyyə vəziyyətinin proqnozlaşdırılması;
- universitetin inzibati strukturunda koordinasiya mərkəzinin yaradılması ilə nizamnamədə müəyyən edilən təhsil xidmətlərinin bazara irəlilədilməsi ilə bağlı fəaliyyətin effektivliyinin yüksəldilməsi.

2030-cu ilə qədər elm və təhsil xidmətləri bazarının real və nəzərdə tutulan vəziyyətini əks etdirən sistem xarakterli bu kimi məsələlərin həlli mövcud və yeni yaradılan təhsil,

elm və innovativ bölmələrin inkişafına motivasiya yaradacaqdır, xüsusi ilə də aşağıdakı şəkildə:

- fakultələr maliyyə hesabatına malik olan bir mərkəz stastusu qazanır. Bu isə öz növbəsində cari tədris və elmi fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi və orta müddətli dövr üçün fakultənin inkişafının planlaşdırılması kimi məsələlərin həll edilməsinə bilavasitə imkan verir;

- kafedralar təris yükünün "sahibi" funksiyasına nail olmaqla özlərinin əvvəlki statusunu bərpa edir, real elmi məktəbə çevrilir;

- təklif edilən elm-təhsil xidmətlərinə (müvafiq iqtisadi əsaslandırmalar aparmaqla) real tələblə uzlaşan yeni tədris proqramları işlənib hazırlanır və tətbiq edilir;

- əsas təhsil proqramlarının istiqamətləri üzrə fəaliyyət göstərən təsərrüfat hesablı struktur bölmələrin (məsələn, fakultənin nəzdində müsabiqə-sərgi tədbirlərinin təşkili və keçirilməsi hüququna malik servis, turizm və qonaqpərvərlik kimi strukturlar) yaradılması prosesi həvəsləndirilir.

***2022–2030-cu illər ərzində iniversitetin idarəetmə sisteminin təkmilləşdirlməsi sahəsində prioritet istiqamətlərə:***

- idarəetmə strukturunun təkmilləşdirilməsi;

- LDU-nun imicinin yüksəldilməsi və brendinin yaxşılaşdırılması da daxil olmaqla nizamnaməyə uyğun formada universitetin təklif etdiyi xidmətlərin təhsil bazarına yeridilməsi sisteminin təkmilləşdirilməsi;

- universitetdə həm idarəetmə, həm də təhsil və elmi fəaliyyətin təşkili üçün vahid informasiya mühitinin formalaşdırılması;

-elmi-pedaqoji işçilərin, köməkçi heyətin və təhsilalanların daxil olduğu kadrlarla iş sisteminin inkişaf etdirilməsi;

- korporativ mədəniyyətin səviyyəsinin yüksəldilməsi;

- Təhsil Nazirliyinin müvafiq təlimat və göstərişləri əsasında layihə fəaliyyətinin təşkili məsələlərinə yanaşmaların təkmilləşdirilməsi aid edilir.

## 7.2. Universitetin vahid informasiya mühiti

**Strateji məqsəd:**

- universitetin dünya informasiya məkanına interqasiya olunan vahid elm və informasiya-kommunikasiya mərkəzi kimi inkişaf etdirilməsi;

- informasiya və telekommunikasiya vasitələrindən istifadə etməklə yeni keyfiyyətli elm və təhsil fəaliyyətinə nail olunması.

**Strateji vəzifələr:**

- universitetin innovasiya subyektləri arasında məlumatların yüksək sürətlə ötürülməsini təmin edən ***İnternet*** şəbəkəsinə xarici giriş kanallarının genişləndirilməsi;

- kompyuter kommunikasiyasının imkanlarından aktiv istifadə etməklə universitetin korporativ şəbəkəsinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi;

- universitetdaxili telekommunikasiya mübadiləsinin sürətinin artırılması (10 Qbit/san);

- təhsil fəaliyyəti, elmi tədqiqatlar və treyninqlərin reallaşdırılması üçün inteqrasiya olunan vahid kompyuter, proqram və telekommunikasiya mühitinin inkişaf etdirilməsi;

- elm - təhsil mühitində texniki vasitələrin və proqram informasiya təminatının sistematik modernləşdirilməsi;

- lizenziyalaşdırılan proqram təminatına malik olma və istifadə etmə;
- tələbələr, müəllimlər və elmi işçilər üçün avtomatlaşdırılmış iş yerlərinin təqdim edilməsi;
- multimediyalı təhsil resurslarının yaradılması;
- dünya təhsil bazarının elektron resurslarının monitorinqi;
- müxtəlif bilik sahələri üzrə elmi konfransların təşkili və keçirilməsi;
- tədris prosesində təhsilin innovativ formalarından istifadə: telekonfransalar, video-konfrans şəkilində mühazirələr, onlayn müzakirələr;

-yeni informasiya texnologiylarının bazasında təhsil fəaliyyətində innovasiya sistemlərinin tətbiqi üçün normativ-hüquqi, elmi-metodiki və təşkilati əsasların işlənib hazırlanması;
- İKT əsasında universitetin avtomatlaşdırılmış idarəetmə sisteminin təkmilləşdirilməsi;
- büdcə və büdcədənkənar vəsaitlər hesabına universitetdə informasiyalaşdırma və telekommunikasiya işlərinin material və maddi təminatının edilməsi.

Rəqəmsallaşan müasir dünyada informasiya texnologiyaları milli iqtisadiyyatın ayrı - ayrı sahə və sektorlarında olduğu kimi bütün universitetlərin fəaliyyətinin mütləq atributu və ayrılmaz tərkib hissəsi hesab edilir. Müasir informasiya texologiyalarından istifadə etməklə LDU-nun idarə edilməsi və əsas elm-təhsil fəaliyyətinin yerinə yetirilməsi universitet üzrə vahid informasiya sisteminin (UVİS) yaradılmasını tələb edir. UVİS istifadəçilərin (abituriyent, tələbə, müəllim, əməkdaşlar, məzunlar, işəgötürənlər, rəhbərlər) şəxsi kabineti əsasında veb-texnologiyaların bazasında qurulur. Təbii ki, informasiya sistemi optimal fəaliyyəti artdıqca mövcud şəxsi kabinet bir qədər də genişlənəcəyi labüd olacaqdır. Xüsusi ilə qeyd etmək lazımdır ki, tələbələrin şəxsi kabinetində universitet tərəfindən göstərilən bütün ödənişli xidmətlərin ani ödənilməsi imkanları ilə tədiyyə sistemi arasında üzvü əlaqə yaradılacaqdır. UVİS vasitəsi ilə şəxsi kabinetlərə həm daxili, həm də xarici şəbəkələrdən giriş mümükün olacaqdır. UVİS sistemində son istifadəçinin işinin effektivliyini müəyyənləş-dirdiyindən interfeysə xüsusi diqqət yetirmək lazım gəlir. Yaradılan interfeys müştəriyönümlü, intuitiv, o cümlədən fiziki imkanları məhdud olan şəxslər üçün sadə anlaşılan olmalıdır.

Vahid pəncərə prinsipi ilə UVİS-ə giriş universitetin daxili korporativ portalı hesab edilir. Portalda qeydiyyatdan keçən istifadəçi universitetdə mövcud olan bütün məlumatlar bazasına və informasiya sistemlərinə giriş üçün müvafiq status əldə edir. Korporativ portalın tərkibində hər bir struktur bölmə özünün ayrıca saytını, veb səhifəsini yaratmaq imkanına malik olur. Belə bir bölmə strukturun təsvirini və yerinə yetirdiyi funksiyaları, əlaqələri, əməkdaşlar və müxtəlif tədbirlər haqqında informasiyaları özündə ehtiva etməlidir. Korporativ portal universitetin vebsaytı və sosial şəbəkə istifadəçiləri ilə sıx əlaqələndirilməlidir. Bu tip inteqrasiya universitetin mətbuat xidmətinə yeni informasiyaların nəşr edilməsinə şərait yaratmaqla bərabər, eyni zamanda istifadəçiləri saytda olan hər dəfə yeni, aktual informasiyalarla təmin edir. UVİS-də təhsil prosesinin bütün iştirakçılarının tez və effektiv qarşılıqlı fəaliyyətini təmin etmək üçün müxtəlif kommunikasiya sistemlərinə (şəxsi kabinet vasitəsi ilə tez məlumatlandırma, email və SMS göndərmələr və s.) giriş interfeysi reallaşdırılmalıdır. İnkişaf etmiş kommunikasiya sistemi ilə inteqrasiya olunan vebportal vahid korporativ mədəniyyətin təkmillşdirilməsinə kömək edəcəkdir. Universitetdə idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə vahid analitik göstəricilər (indikatorlar) bazası yaradılacaq və mövcud informasiya sistemi vasitəsi ilə göstəricilər gündəlik yenilənəcəkdir. Göstəricilərin seçilməsi və onların hesablanması metodikasının hazırlanması üçün bütün maraqlı tərəfləri

özündə birləşdirən işçi qrupu yaradılmalıdır. Bu baza universitet üzrə yekun hesabatların avtomatik formalaşması üçün əsas rol oynamalı və servis xidmətləri toplusu genişlənməlidir.

UVİS-in elektron sənəd dövriyyəsi sistemi ilə inteqrasiyası istifadəçilərə şəxsi kabinet vasitəsi ilə lazım olan bütün sənədlərə giriş üçün imkanlar qazandırır. İşəgötürənlərə vakansiyaların təklif edilməsi və universitetin tələbə və məzun kontingentinin seçiməsi üçün imkanlar açan şəxsi kabinetin yaradılması əmək bazarında məzunların rəqabət qabiliyyətliliyini artırır. Təhsil bazarı iştirakçılarının (tələbə, magistr, müəllim) virtual iş yerləri məsafədən təhsil sistemi ilə inteqrasiya olunur. Bu tələbələrə təhsillə bağlı bütün informasiyaları əldə etməyə, müəllimlərə isə tədris materiallarının nəşr və onlardan səmərəli istifadə olunması üçün rasional imkanlar yaradır.

Müasir rəqabət qabiliyyətli unversitet mühiti əks əlaqə sisteminə əsaslanır. Bunun üçün tələbə cəmiyyəti ilə aktiv qarşılıqlı fəaliyyətdə olan bir sıra əks əlaqəli, xüsusi ilə müəllimlərin və tədris ilinin qiymətləndirilməsi ilə bağlı yeni servis xidmətinin istifadəyə verilməsi planlaşdırılır. Veb saytın inkişafı, sosial şəbəkədə aktivlik, tələbə həyatı haqqında informasiyaların nəşr edilməsi, abituriyentləri universitetə, təhsil alanların isə tədris prosesinə maksimum cəlb edilməsinə, universitet həyatının tələbələr üçün daha maraqlı və rəngarəng olmasına dəstək nümayiş etdirməlidir.

Universitetin informasiya mühitinin cari səviyyəsi əksər ali təhsil müəssisələrinin tələblərinə cavab verən və təhsil xidmətləri bazarında bu gün mövcud olandan daha fərqli kommersiya əsaslı “vahid elektron universitet” platformasının yaradılmasını bir məqsəd kimi qarşıya qoyur.

Beləliklə, UVİS yaradılması universitetin bütün struktur bölmələrinin işinin keyfiyyətini yüksəltməklə yanaşı, eyni zamanda perspektivdə əsas gəlir mənbəyinə çevriləcəkdir. UVİS inkişaf etdirilməsi 2030-cu ilə qədər universitetin idarəetmə sisteminin təkmilləşdirilməsi üzrə müəyyən edilən prioritet istiqamətlərlə bir yerdə, vahid kontekstdə nəzərdən keçirilməlidir. Bunun üçün 2022-ci ildə məqsədi inkişaf edən informasiya mühiti ilə universitetin inkişaf strategiyasını mütəmadi koordinasiya etməkdən ibarət olan daimi fəaliyyət göstərən işçi qrupu yaradılmalıdır.

Universitetin informasiya mühitinin yaxşılaşdırılması ilk növbədə istifadə edilən telekommunikasiya vasitələrinin modernləşmə səviyyəsindən asılıdır. UVİS-in ehtibarlı işini təmin etmək üçün 2022-ci ildə ehtiyat məlumatlar bazasının yaradılması, Wi-Fi şəbəkəsinin genişləndirilməsi, hesablama güclərinin artırılmasını planlaşdırmaq lazım gəlir.

Yuxarıda qeyd edilən məqsədlərə nail olmaq üçün universitet portalının idarə edilməsi kimi yeni struktur bölmənin yaradılması məqsəduyğun hesab edilir.

### *7.3. Kadr potensialının inkişaf etdirilməsi*

Kadr potensialının inkişaf etdirilməsi kadırlarla işlərin hüquqi, inzibati - təşkilatı və maliyyə - iqtisadi aspektlərinə toxunmaqla bu sahədə mövcud universitet sisteminin köklü şəkildə yenidən qurulmasını nəzərdə tutur. Strateji inkişaf planının reallaşması ilə bağlı birinci mərhələdə yuxarıda qeyd edilən məsələlərin həllini təmin edən yanaşma və mexanizmlərin azsaylı tələbə kontingenti və əməkdaşlar üçün planlaşdırılması və pilot tətbiqi təmin edilməlidir. İkinci mərhələdə isə sınaqdan çıxarılan yanaşma və mexanizmlər bütün əməkdaşlara və tələbələrə, kadr işləri ilə bağlı bütün fəaliyyət istiqamətlərinə və məqsəd auditoriyasına şamil edilməlidir. Kadr heyətinin formalaşması LDU-nun strateji fəaliyyət istiqamətlərindən biri hesab edilir. Bu kontekstdə universitet aşağıdakı məqsəd qruplarına fokuslanır:

- professor-müəllimlərdən ibarət elmi pedoqoji işçilər;
- inzibati-idarəetmə heyətinin nümayəndələri;

- tədris-köməkçi heyətin nümayəndələri;
- universitetdə təhsil alan tələbə, magistrant və doktorantlar, eləcə də istedadlı gənclər;
- görkəmli elm və dövlət xadimləri, sahibkarlar və biznesmenlər.

**Strateji məqsəd:**

-universitet qarşısında duran məqsəd və vəzifələrə cavab verə bilən bilik, mədəniyyət, milli ənənə daşıyıcısı kimi kadr potensialının inkişaf etdirilməsi;

-təhsilalanların və əməkdaşların özlərini tam ifadə etmələri üçün korporativ mədəniyyətə, iqtisadi həvəsləndirməyə və sosial zəmanətə nail olunması;

-təhsilalanların və əməkdaşların işdən maksimum zövq almalarını və biliklərinin zənginləşdirilməsinin təmin edilməsi.

**Strateji vəzifələr:**

-universitetin müəllim kollektivi, kompetent məzun və doktorantları, görkəmli elm və təhsil işçiləri, həmçinin praktiki fəaliyyət sahələrinin mütəxəssislərinin cəlb edilməsi ilə kadr potensialının təkrar istehsalı və inkişafı ilə bağlı proqramın işlənib hazırlanması və reallaşdırılması;

- akademik mübadilə formasında xarici ölkələrin aparıcı elm-təhsil mərkəzləri ilə uzunmüddətli əlaqələrin inkişaf etdirilməsi: universitet alimləri və müəllimlərinin təcrübə keçmələri; xarici ölkə universitetlərinin alim və mütəxəssislərinin elm və tədris işlərinə cəlb edilməsi; universitet əməkdaşları və təhsil alanların elm və təhsil üzrə beynəlxalq səviyyəli proqram və layihələrdə iştirakının aktivləşdirməsi;

- təhsil fəaliyyətinə innovativ yanaşma, tədqiqat işlərində sistematik iştirak, ölkə və onun hüdüdlarından kənarda nüfuzlu elmi məcmuələrdə çap olunma, elmi dərəcə və ad alma, tələbələri ETİ-ə cəlbetmə və digər göstəricilər hesaba alınmaqla müsabiqə əsasında professor - müəllim heyətinin seçilməsinə qoyulan tələbləri sistematik yeniləyən sistemin işlənib hazırlanması və tətbiq edilməsi;

- inzibati - idarəetmə, elmi-texniki, tədris-köməkçi və təsərrüfat kateqoriyasına aid işçilərə, onların peşəkarlıq səviyyəsinə, yeni informasiya texnologiyalarını mənimsəmə qabiliyyətinə və işgüzar prosesləri təşkil etmə metodlarına tələbkarlığın artırılması;

- universitetin onun struktur bölmələrinin rəhbər, həmçinin pedoqoji və elmi işçilər üzrə kadr ehtiyatı portfelinin formalaşdırılması;

-universitet əməkdaşlarının məqsədli sosial müdafiə mexanizminin gücləndirilməsi: yüksək səviyyədə elmi aktivlik nümayiş etdirənlərə, təhsil fəaliyyətində innovativ ideyaları ilə fərqlələnlərə, həmçinin istedadlı müəllimlərə ünvanlı yardımların göstərilməsi; gənc müəllimlər, dissertant və doktorantlar üçün universitetdaxili qrant sisteminin inkişafı; sosial məsələlərin həlli və kadr siyasətinin reallaşmasına yönəlik əlavə maliyyə vəsaitlərinin cəlbedilməsi məqsədi ilə universitetin biznes sferası ilə qarşılıqlı fəaliyyətini təmin edən effektiv üsulların axarılıb tapılması;

- işçilərin əmək hüquqları və azadlıqlarına, eləcə də əməyin mühafizəsi və sosial sığorta üzrə tələblərə riayət olunmasına zəmanətin təmin edilməsi, əlverişli əmək şəraitinin yaradılması, onların hüquq və maraqlarının müdafiəsi;

- təyinatlı obyektlərin inkişaf etdirilməsi, onları müasir dövrün tələblərinə uyğunlaşdırılması məqsədi ilə modernləşdirilməsi, yeni sosial obyektlərin inşası;

-işçi və təhsil alanların sağlam həyat tərzi keçirmələri və mədəni səviyyələrini yüksəltmək üçün sosial infrastrukrur və fiziki-sağlamlıq obyektlərinin səmərəliliyinin yüksəldilməsi;

- kollektiv müqavilələrin bağlanması yolu ilə işçilər və təhsil alanların hüquqlarının qorunması üzrə təbirlərin spektrinin genişləndirilməsi;

- yataqxanalarda yaşayış şəraitinin yaxşılaşdırılması və universitetdaxili nizam-intizam qaydalarına riayət edilməsinin təmini;

- ictimai və həmkarlar təşkilatları vasitəsi ilə işçilər və tələbələrin universitetin idarə edilməsində iştirakının təmin edilməsi;

2030-cu ilə qədər LDU-nun kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi üzrə həll edəcəyi *əsas məsələlər:*

- universitet nümayəndələrinin peşəkar və şəxsi keyfiyyətlərinin reallaşması üçün optimal şəraitin formalaşdırılması;

- universitetdə kadrların seçilməsi və kadr ehtiyatının formalaşdırılması ilə bağlı səmərəli mexanizmin işlənib hazırlanması və reallaşdırılması;

- yuxarıda qeyd edilən məqsəd qruplarının bütün nümayəndələri üçün işin effektivliyini qiymətləndirən (ilk növbədə effektiv kontrakt bağlamaq vasitəsi ilə) sistemin təkmilləşdirilməsi;

- gənc mütəxəssislərin pedoqoji faəliyyətə və tədqiqat işlərinə cəlb edilməsi məqsədi ilə "karyera nərdivanı"nın işlənib hazırlanması və tətbiqi;

- universitet əməkdaşları və təhsilalanların məqsədli sosial müdafiəsi ilə bağlı yanaşma və mexanizmlərin təkmilləşdirilməsi və s. ibarətdir.

Göstərilən məsələlərin həlli kadırlarla işlərin hüquqi, inzibati-təşkilatı və maliyyə - iqtisadi aspektlərinə toxunmaqla bu sahədə mövcud universitet sisteminin köklü şəkildə yenidən qurulmasını nəzərdə tutur. Proqramın reallaşması ilə bağlı birinci mərhələdə yuxarıda qeyd edilən məsələlərin həllini təmin edən yanaşma və mexanizmlərin azsaylı tələbə kontingenti və əməkdaşlar üçün planlaşdırılması və pilot tətbiqi təmin edilməlidir. İkinci mərhələdə isə sınaqdan çıxarılan yanaşma və mexanizmlər bütün əməkdaşlara və tələbələrə, kadr işləri ilə bağlı bütün fəaliyyət istiqamətlərinə və məqsəd auditoriyasına şamil edilməlidir.

## 8. PLANIN REALLAŞMA MƏRHƏLƏLƏRİ, MEXANİZMİ VƏ İNTEQRATİV NƏTİCƏLƏR

### 8.1. 2022 - 2030-cu illərə qədər LDU-nun strateji inkişaf planının reallaşma mərhələləri

***2022 – 2025-ci illəri əhatə edəcək birinci mərhələdə aşağıdakı işlərin həyata keçirilməsi planlaşdırılır:***

- kadrların hazırlanması və yenidən hazırlanmasını nəzərdə tutan peşəkar standartlar əsasında innovativ təhsil proqramlarının işlənib hazırlanması;

-fiziki imkanları məhdud şəxslər üçün də normal mühit yaratmaqla keyfiyyətli təhsilin əlçatanlığının təmin edilməsi;

- hazırlığın fərdləşdirilməsi məqsədi ilə təhsil proqramlarının formalaşmasında təhsil alanların iştirak imkanlarının genişləndirilməsi.

***İkinci mərhələdə (2025-2030 -cu illər) aşağıdakı işlərin həyata keçirilməsi planlaşdırılır***:

- bakalavr və magistratura pilləsi üzrə yeni təhsil proqramlarının lisenziyalaşdırılması;

-işəgötürüənlər, regional və bələdiyyə orqanları ilə strateji əməkdaşlıq mexanizminin formalaşdırılması;

- bütün elmi - pedoqoji kollektivinin universitetin tədqiqat və innovasiya fəaliyyətinə aktiv formada cəlbedilməsi, 2030-cu ilə qədər professor-müəliim heyətinin elmi-tədqiqat işlərində iştirakını 60% - qədər çatdırılması;

- müəssisə və təşkilatların sifarişləri əsasında yerinə yetirilən qrant layihələri və müqavilələrin sayının artırılması;

- konkret elmi istiqamətlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün ixtisaslaşmış dissertasiya şuralarının yaradılması kimi işlərin həyata keçirilməsi nəzərdə tutulur.

### *8.2. Strateji inkişaf planın reallaşma mexanizmi*

Strateji inkişaf planının idarə edilməsinə LDU-nun rektoru tərəfindən rəhbərlik edilir. Rektor plandan irəli gələn məsələlərin həlli metodları və formalarını müəyyənləşdirir, tədbirlərin reallaşmasından əldə edilən son nəticələrə cavabdehlik daşıyır. Strateji inkişaf planına operativ rəhbərlik rektorluq tərəfindən aparılır və özündə aşağıdakıları birləşdirir:

- planda nəzərdə tutulan məqsəd və vəzifələrin icrası məqsədi ilə universitetin müvafiq struktur bölmələrinin fəaliyyətinin planlaşdırılması və onlara nəzarət;

- proqram xarakterli tədbirlərin həyata keçirilməsi üçün resurslardan istifadə və onların koordinasiyası;

- planın icrasına nəzarəti təmin etmək üçün xüsusi komissiyanın yaradılması;

- planın icrası haqqında müntəzəm məlumatlandırma işlərinin təşkili, informasiya materiallarının KİV - də, universitet sayıtında işıqlandırılmasını ehtiva edir.

Planda nəzərdə tutulan proqram xarakterli tədbirlərini həyata keçirilməsinin qiymətləndirilməsi və ona nəzarət universitetin böyük Elmi Şurası tərəfindən aparılır. Plan qeyri - mərkəzləşdirmə prinsipi əsasında idarə edilir, səlahiyyətlər müvafiq istiqamətlər üzrə prorektorlara və universitetin müvafiq struktur bölmələrə verilir. Ayrı-ayrı istiqamətlər

üzrə proqram tədbirlərinin reallaşması və müəyyənləşdirilən strateji məqsədlərə nail olmaq üçün layihə qrupları yaradıla bilər.

### *8.3. Planın reallaşmasından əldə edilən inteqrativ nəticələr*

***Təhsil sahəsində:***

- təhsil prosesi iştirakçılarının peşəkar mobilliyinin artırılması;

- əmək bazarında məzunların rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, onların karyera inkişafının təmin edilməsi;

- təhsilalanların və müəllimlərin akademik mübadilə sisteminin formalaşması;

- universitetin milli və beynəlxalq reytinqdə mövqeyinin möhkəmləndirilməsi;

- müxtəlif təhsil pillələri üzrə fasiləsiz kompetent mütəxəssis hazırlığını həyata keçirmək üçün müasir tələblərə cavab verə bilən infarstrukturun formalaşdırılması;

- təhsil sferasının, o cümlədən ölkənin müxtəlif regionlarında çalışan geniş spektrli mütəxəssislərin innovativ elm - təhsil fəaliyyətinə cəlb edilməsi mexanizminin yaradılması.

***Elmi sahədə:***

- təhsil və bütövlükdə sosial sferada tədqiqatların və işləmələrin keyfiyyətini yüksəltmək üçün əlverişli şəraitin yaradılması, aktual hesab edilən sosial problemlərin həllində effektiv iqtisadi üsulların elmi cəhətdən əsaslandırılması;

- elmi - pedoqoji kadrların fasiləsiz təkrar istehsalı, elmi tədqiqatların yerinə yetirilməsində iştirak edəcək təhsilalanların və gənc kadrların sayının artırılması, gənc tədqiqatçılar üçün elm və təhsilin cəlbediciliyinin yüksəldilməsi, gənclərin təhsil və elmi sferaya təhkim edilməsi;

- elm və təhsilin prioritet istiqamətləri sahəsində beynəlxalq elmi əlaqələrin, tədqiqat fəaliyyətinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi;

- universitetdə yerinə yetirilən innovativ xarakterli elmi tədqiqatların və işləmələrin nəticələrinə cəmiyyət, təhsil sferası, biznes, dövlət və beynəlxalq ictimaiyyət tərəfindən tələbatın artması.

***İqtisadi sahədə:***

- qabaqcıl təhsil texnologiyalarının koporativ təhsil sisteminə transferi üçün yüksək sosial məsuliyyət və şərait formalaşdıran təhsil müəssisələri, bzines qurumları və sosial sferaya mənsub təşkilatlar arasında sosial tərəfdaşlıq və qarşlıqlı fayda əsasında əməkdaşlığın yeni təşkilatı formalarının qurulması;

- intellektual fəaliyyətin rəqabət qabiliyyətli nəticələrinin təhsil xidmətləri bazarına irəlilədilməsi hesabına universitetin regionun və ölkənin sosial - iqtisadi inkişafına təsir imkanlarının genişləndirilməsi;

***Universitetin effektiv menecmenti sahəsində:***

-müasir reallığı və universitetin fəaliyyət istiqamətləri üzrə investisiya cəlbediciliyinin yüksəldilməsini nəzərə alan optimal universitet modelinin formalaşdırılması;

-menecment sahəsində peşəkarlıqla kadr siyasətinin balanslaşdırılması, onların təhsil siyasətində müasir şəraitin çağrışları və dəyişmə meyllərinə uyğunlaşdırılması;

- universitetin yeni təşkilatı dizaynı və optimal strukturunun yaradılması.